QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 067 (5787) **16 aprel** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qәpik**

# İLHAM ƏLİYEV-XALQIN PREZİDENTİ!

*Bu gün dünyaya təqdim edilən inkişaf və tərəqqi modelinin Azərbaycan brendi, bilavasitə Prezident İlham Əliyev Cənablarının yorulmaz, qətiyyətli və möhkəm iradəyə söykənən siyasətinin isbatıdır*



Səh 2

"İslahatların nəticələrini görürük və bundan sonra da görəcəyik"



3

Novruz Məmmədov: ""Azərbaycan beynəlxalq aləmdə etibarlı tərəfdaşa çevrilib"



4

Elmar Məmmədyarov: Moskva görüşü faydalı və substantiv keçdi



3

Naxçıvanda müşavirə keçirilib



5

Hikmət Hacıyev: Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi dünyada sülh və təhlükəsizliyin bərqərar olmasına töhfə verəcək



6

Ermənistanda etiraz aksiyası zamanı silahlı qarşıdurma olub



7

11

2030-cu ildə paytaxtımızda metro stansiyalarının sayı 76-ya çatacaq



11

Azərbaycanda ilk dəfə tele-opera çəkilib




12

Erməni iqtisadçı Paşinyan hökumətini "yıxıb-sürüdü"



# İLHAM ƏLİYEV -XALQIN PREZİDENTİ!

*Bu gün dünyaya təqdim edilən inkişaf və tərəqqi modelinin Azərbaycan brendi, bilavasitə Prezident İlham Əliyev Cənablarının yorulmaz, qətiyyətli və möhkəm iradəyə söykənən siyasətinin isbatıdır*



Fransanın "Opinion Way" şirkətinin keçirdiyi rəy sorğusu istər Azərbaycanda, istərsə də beynəlxalq aləmdə Prezident İlham Əliyevin uğurlu fəaliyyətinə verilən yüksək qiymət kimi tərənnüm edilməkdədir. Belə ki, ölkəmizdə bütün sahələrdə əldə edilən uğurlar, aparılan islahatlar və bu islahatların inqilabi nəticələr əldə etməsi, söz yox ki, bilavasitə Cənab İlham Əliyevin yürütdüyü siyasətin bariz sübutdur. Əbəs deyil ki, yalnız "Opinion Way" şirkəti deyil, zaman-zaman digər nüfuzlu sorğu şirkətlərinin gəldikləri qənaətlərində dövlət başçımızın siyasi, sosial, iqtisadi və s. sahələrdə əldə etdiyi uğurları, o cümlədən, xalqın Onun siyasətini dəstəkləməsi faktları özünü kifayət qədər sübuta yetirib.

## Azərbaycanda Prezident İlham Əliyev tərəfindən müəyyənləşdirilən siyasi strategiya, ilk növbədə, sabitliyi təmin edib, onun ardınca isə, inqilabi islahatlara başlanılıb

Prezident İlham Əliyevin öz seçicilərinin yüksək etimadına malik olduğunu təsdiq edən sorğunun nəticələri, həm də belə deməyə zəmin yaradır ki, Azərbaycanda sabitlik və inkişafın mövcudluğu xalqın marağına cavab verən danılmaz gerçəklikdir. Artıq bəllidir ki, soğruda iştirak edən respondentlərin 80,1%-i ölkədəki mövcud ictimai-siyasi və sosial-iqtisadi sabitliyin qorunub-saxlanılmasını dövlət başçısının fəaliyyətinin ən uğurlu nəticəsi kimi dəyərləndiriblər. Xatırlatmaq yerinə düşərdi ki, sorğunun "Prezident İlham Əliyevin son bir ildə gördüyü işləri necə qiymətləndirirsiniz?" sualına respondentlərin 85,1%-i, seçkiqabağı vədlərinin yerinə yetirilməsinin qiymətləndirilməsinə dair suala isə 75,6%-i müsbət münasibət bildiriblər ki, bu da yüksək göstərici kimi qiymətləndirilib. Beləliklə, ümumiləşmiş orta nəticələr onu göstərir ki, əgər bu gün yenidən prezident seçkiləri keçirilsə, İlham Əliyev ölkə seçicilərinin 83-85 faizinin səsini qazana bilər. Bu, birbaşa Azərbaycan xalqının gəldiyi qənaətdir ki, "Opinion Way" şirkəti bu rəyi dünya ictimaiyyətinin diqqətinə çatdırıb.

Burada diqqətçəkici məqamlardan biri də, dünyaya təqdim olunan müasir, inkişaf və tərəqqi yolunu gedən Azərbaycan modelidir. Çünki çoxsaylı təcrübələrdən uğurla çıxan bu model təməlli olaraq, sabitliyin qarantı olaraq dəyərləndirilir. Əbəs deyil ki, bu gün bir çox siyasilər öz çıxışlarında, xüsusilə, vurğulayırlar ki, əgər ölkədə sabitlik olmazsa, inkişafdan danışmağa, bu istiqamətdə fəaliyyət göstərməyə dəyməz. Məhz Azərbaycanda təmin edilən sabitlik nəticəsində, inkişaf çoxşaxəli şəkildə davam etdirilməkdədir. Bu baxımdan, deyə bilərik ki, Azərbaycanda İlham Əliyev Cənabları tərəfindən müəyyənləşdirilən siyasi strategiya, ilk növbədə, sabitliyi təmin edib, onun ardınca isə, inqilabi islahatlara başlanılıb. Bu islahatlar iqtisadi inkişafdan, daxili siyasətdən başlayaraq, xarici siyasətə qədər mövcuddur və ölkəmizi nəhəng trayektoriya ilə beynəlxalq aləmdə də əhatə edir. Təbii ki, atılan hər bir addım xalqın rifahı və xoşbəxtliyi naminədir.

## Əli Həsənov: "Prezidentin islahatlar strategiyasının başlıca məqsədi ölkənin sosial-iqtisadi inkişafının təmin edilməsi, demokratik dəyərlərin inkişafı və dövlət idarəçiliyi sisteminin təkmilləşdirilməsi təşkil edir"

Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov sorğunun nəticələri və yenidən ölkə başçısı seçilməsinin birinci ildönümü ilə bağlı fikirlərini açıqlayarkən, vurğulayıb ki, dövlət başçımız yeni Prezidentliyi dönəminin ilk ilində həyata keçirdiyi düşünülmüş və məqsədyönlü siyasətlə ölkəmizin inkişafının, xalqımızın əmin-amanlıq şəraitində yaşamasının təmin edilməsi üçün verdiyi bütün vədləri vaxtında və yüksək səviyyədə yerinə yetirib. "Azərbaycanın əldə etdiyi uğurlar xalqımızın bir il bundan əvvəl keçirilən prezident seçkilərində Cənab İlham Əliyev kimi uzaqgörən siyasi lideri dəstəkləməklə, düzgün mövqe tutduğunu bir daha sübut edir" deyə qeyd edən Prezidentin köməkçisi vurğulayıb ki, Cənab İlham Əliyevin seçkilərdə yenidən qələbə qazanmasının əsasında Azərbaycanın son 16 il ərzində onun rəhbərliyi altında dinamik inkişaf dövrünü yaşaması, ölkəmizin qarşısında dayanan vəzifələrin uğurla icra edilməsi kimi ciddi amillər dayanır: "Prezidentin islahatlar strategiyasının başlıca məqsədi ölkənin sosial-iqtisadi inkişafının təmin edilməsi, demokratik dəyərlərin inkişafı və dövlət idarəçiliyi sisteminin təkmilləşdirilməsi təşkil edir. Həyata keçirilən sosial təminat paketi ölkədə sosial müdafiə sisteminin gücləndirilməsi sahəsində atılan mühüm addımdır. Ötən bir ildə iqtisadiyyatın dayanıqlığının təmin edilməsi, onun rəqabətə davamlılığının artırılması məqsədilə ardıcıl tədbirlər davam etdirilmiş, iqtisadi və maliyyə sektorlarında maksimum şəffaflığın təmin olunması istiqamətində mühüm addımlar atılmışdır. Azərbaycanın liderliyi ilə və yaxından iştirak etdiyi nəhəng transmilli layihələrin reallaşması Avrasiyanın enerji və nəqliyyat xəritəsində ciddi dəyişikliklər yaratmışdır. Ötən bir il ərzində, ölkənin sosial-mədəni xidmət sahələrində və təsərrüfat infrastrukturunda mühüm yeniliklər baş vermiş, turizm infrastrukturu ən müasir standartlara uyğunlaşdırılmışdır. Azərbaycanın sosial-iqtisadi inkişaf sahəsində əldə etdiyi uğurlar Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı kimi nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilmişdir. Prezident İlham Əliyevin apardığı uğurlu xarici siyasətin sayəsində Azərbaycanın dünya dövlətləri və beynəlxalq güc mərkəzləri ilə səmərəli, işgüzar və bərabərhüquqlu münasibətləri daha da möhkəmlənmişdir".

## "Opinion Way" şirkətinin keçirdiyi rəy sorğusu xarici kütləvi informasiya vasitələri tərəfindən də işıqlandırılır, Prezident İlham Əliyevin uğurlu fəaliyyəti dünyanın diqqət mərkəzindədir!

"Opinion Way" şirkətinin keçirdiyi rəy sorğusu xarici kütləvi informasiya vasitələri tərəfindən maraqla qarşılanmış və geniş işıqlandırılmışdır. Artıq bir neçə gündür ki, Rusiya, Türkiyə və ərəb ölkələrinin bir çox nüfuzlu KİV-ləri Azərbaycan Prezidenti İlham Əliyevin apardığı siyasətin uğurlarını şərh etmiş və bu siyasətin xalqın böyük dəstəyinə malik olduğunu xüsusi vurğulayırlar.

TÜRKSOY baş katibinin müavini Fırat Purtaş qeyd edib ki, Azərbaycanda əhalinin təbii artımındakı dinamik inkişaf dövlətlərimizin gücünə güc qatır. Bu, Prezident İlham Əliyevin müdrikcəsinə düşündüyü neft kapitalını insan kapitalına çevirmək strategiyasının təntənəsidir.

Beləliklə, bütün reallıqlar bir amili əks etdirir - bu gün dünyaya təqdim edilən inkişaf və tərəqqi modelinin Azərbaycan brendi, bilavasitə Prezident İlham Əliyev Cənablarının yorulmaz, qətiyyətli və möhkəm iradəyə söykənən siyasətinin isbatıdır. Azərbaycan xalqı isə, məhz xalq-dövlət sarsılmaz vəhdətinə sadiqlik nümayiş etdirərək, bu inkişafa bundan sonra da dəstək göstərəcək.

***Rövşən NURƏDDİNOĞLU***

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə"nin və "e-sosial" internet portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Çin Xalq Respublikasının Mədəniyyət və Turizm Nazirliyi arasında 2019-2023-cü illər üçün mədəni əməkdaşlıq haqqında Protokolun təsdiq edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Sosial müavinətlərin məbləğinin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 29 avqust tarixli 973 nömrəli fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 15 fevral tarixli 795 nömrəli və "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 23 fevral tarixli 1256 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Bakı şəhərinin Suraxanı rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

# "İslahatların nəticələrini görürük və bundan sonra da görəcəyik"

***Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor Əli Həsənov Azərbaycan Televiziya və Radio Verilişləri (AzTv) Qapalı Səhmdar Cəmiyyətinin (QSC) "Həftə" proqramında aparıcı Rövşən Məmmədovun qonağı olub. Prezidentin köməkçisi Ə.Həsənov 11 aprel 2018-ci ildə keçirilən Prezident seçkilərindən ötən bir il ərzində ölkənin həyatında baş verən mühüm hadisələr, xalq-lider birliyi, bugünkü reallıqlar və gələcək hədəflər, Fransanın "Opinion Way" şirkətinin Azərbaycanda keçirdiyi rəy sorğusunun nəticələri və sairlə bağlı jurnalistin suallarını cavablandırıb.***

***- Əli müəllim, 11 aprel 2018-ci il tarixdə keçirilən prezident seçkilərindən bir il ötür. Məhz ötən il keçirilən seçkilərdən sonra islahatların yeni dalğasına start verildi. Həmin islahatların ortaya çıxardığı bugünkü nəticələri necə dəyərləndirirsiniz? Ötən bir ildə hansı nailiyyətlərə imza atılıb?***



- Azərbaycandakı mövcud ictimai-siyasi vəziyyətə, Prezident İlham Əliyevin son bir ildə həyata keçirdiyi islahat kursuna, hökumətin ümumi daxili və xarici siyasətinə ölkə əhalisinin münasibətini öyrənmək məqsədilə Fransanın "Opinion Way" şirkətinin keçirdiyi geniş rəy sorğusunun nəticələri, həmçinin indiyə qədər həyata keçirilən islahatlar, görülən işlər onu deməyə əsas verir ki, Prezident İlham Əliyevin son bir ildəki fəaliyyəti kifayət qədər nəticəli olub. İlk növbədə görünən, müşahidə olunan, eləcə də sorğunun ortaya çıxardığı məsələ fəaliyyətin dinamikasıdır. Tək son bir ildə deyil, ümumilikdə ötən 16 il ərzində Prezident İlham Əliyevin fəaliyyəti hər zaman dinamik olub. Dövlət başçısının indiyə qədər təsdiq etdiyi 4 regional inkişaf proqramından 3-nün tam yerinə yetirilməsi, 1-nin isə hazırda icra olunması nəticəsində Azərbaycanın bütün regionları tamamilə yenidən qurulub, siması əsaslı şəkildə dəyişib, infrastruktur layihələr reallaşdırılıb, o cümlədən əhalinin elektrik enerjisi və qaz təchizatı, içməli su təminatı daha da yaxşılaşdırılıb, yollar, müxtəlif təyinatlı sosial obyektlər yenidən qurulub. Faktiki olaraq Azərbaycanın regionları tamamilə yenidən qurulub. Ötən bir il ərzində Prezident İlham Əliyev regionlara 24 dəfə səfər edib. Dinamikanı görürsünüzmü? Bu, o deməkdir ki, dövlət başçısı 5 ilə regionlara 100-dən artıq səfər edir. Həmin səfərlərdə Prezident İlham Əliyev nəinki verdiyi göstərişlərin, tapşırıqların yerinə yetirilmə səviyyəsini yoxlayır, eyni zamanda ölkə vətəndaşları, yerli sakinlərlə intensiv təmasda olur, çoxsaylı görüşlər, ayrı-ayrı sahələri, xüsusən də kənd təsərrüfatının inkişafını nəzərdə tutan müşavirələr keçirir. Son bir ildə isə fəaliyyət dinamikası daha çox hiss olunur. Bu dinamika "Opinion Way" şirkətinin keçirdiyi sorğunun nəticələrində də öz əksini tapıb. Azərbaycan xalqı hər zaman hər şeyin daha dinamik, tez və nəticəli həyata keçirilməsini arzu edir. Sorğunun nəticələri də onu göstərdi ki, Prezident İlham Əliyevin son bir ildəki fəaliyyəti sözün həqiqi mənasında xarakterizə edən əsas məsələlərdən biri fəaliyyətin dinamikası, sistemliliydir. Yeni Azərbaycan Partiyasının 11 aprel prezident seçkiləri ərəfəsində keçirilən qurultayında Prezident İlham Əliyev qısa, lakonik, lakin kifayət qədər məzmunlu, proqram xarakterli çıxış etdi. Bu çıxışında o, gələcək fəaliyyətinin müəyyən konturlarını açıqladı. İslahat siyasətini də ilk dəfə o zaman bəyan etdi. Prezident kimi fəaliyyətə başladığı yeni dönəmdə dövlət idarəçilik sistemində Azərbaycan üçün zəruri sahələri əhatə edən vergilər, sosial təminat, gömrük sistemlərini, idxal-ixrac proseslərini, əhalinin ərzaq təminatını və təhlükəsizliyini təmin edən sistemləri və sair sahələri əhatə edən islahatlar başlandı. 2018-ci ilin aprel ayından dekabr ayına qədər bu sahələrin fəaliyyəti yeniləndi. Cari ilin yanvar ayında biz bu islahatların nəticələrini gördük. Vergi sistemində həyata keçirilən islahatlar, nizam-intizam, şəffaflıq, idarəçilik sisteminin təkmilləşdirilməsi nəticəsində cari ilin yanvar ayında vergi daxilolmaları artdı. Dövlət büdcəsinə əlavə vəsaitlər daxil oldu. Prezident İlham Əliyev bundan irəli gələrək genişmiqyaslı sosial paket ortaya qoydu. Bu sistemlilik fəaliyyət dinamikası ilə birlikdə ötən bir ilin xarakteristikasını ortaya qoyan məsələlərdir.

***- Söylədiklərinizə dəstək olaraq, ötən bir ili əvvəlki illərdən fərqli olaraq dinamik inkişaf tempi, həyata keçirilən islahatlar, sosial siyasətin daha da aktivliyi ilə xarakterizə etmək olar. İstərdim ki, sosial məsələlərə ayrıca olaraq toxunaq. Prezident İlham Əliyev hər zaman vurğulayır ki, vətəndaşın rifahı, sosial müdafiəsi siyasətimizin ana xəttini təşkil edir. Son bir il ərzində atılan hansı sosial xarakterli addımlar vətəndaşın məhz Prezident İlham Əliyevin yanında olduğunu sübut etdi?***

- Prezident İlham Əliyevin fəaliyyətinin əsas xarakterik xüsusiyyətlərindən biri onun siyasətinin təməlində, mərkəzində Azərbaycan vətəndaşının rifahının, maraqlarının və gündəlik qayğılarının dayanmasıdır. Prezident İlham Əliyevin belə bir aforizmi var: "Mən istəyirəm ki, Azərbaycanda heç bir insanın hər hansı problemi olmasın". Heç bir insanın heç bir probleminin olmaması istəyi dünyada öz ölkəsinə rəhbərlik edən bütün prezidentlərin arzusudur. Çünki, hər bir prezidentin sosial dayağı bununla şərtlənir. Prezident İlham Əliyev söz və əməl sahibidir. O, demək olar ki, bütün fəaliyyətini ölkə vətəndaşlarının maraqları üzərində qurur. Həyata keçirilən hər bir tədbirin dövlət başçımız üçün iki dəyər və qiymət meyarı var. Birincisi dövlətin maraqlarının təmin olunması, ikincisi insanların həyat səviyyəsinin daha da yaxşılaşdırılmasıdır. Prezidentin fəaliyyətinin ictimai əhəmiyyətliliyi bu iki meyar üzərində qurulub. Ona görə də Prezident İlham Əliyevin daxili və xarici siyasətinin təməlində Azərbaycan vətəndaşının maraqları dayanır. Konkret sosial siyasətə gəlincə, cari ilin yanvar, fevral və mart ayı ərzində Prezident İlham Əliyevin qəbul etdiyi sosialyönlü paketlər, o cümlədən fərman və sərəncamlar, icra olunan tədbirlər Azərbaycan əhalisinin az qala yarısını əhatə edir. Təxminən 4 milyondan artıq əhalimiz son addımlar nəticəsində özünün sosial-iqtisadi vəziyyətini yaxşılaşdırıb. Bunun nəticələrini biz artıq görürük və bundan sonra da görəcəyik. "Opinion Way" şirkətinin fevral-mart aylarını əhatə edən sorğusunun nəticələri də qeyd edilənləri bir daha nümayiş etdirir. Son aylar ərzində Prezident İlham Əliyev tərəfindən imzalanan və sosial sahəni əhatə edən fərman və sərəncamların maliyyə yükü büdcədən əlavə 2,5 milyard manata yaxındır. Prezident İlham Əliyevin ötən il Prezident seçildikdən sonra imzaladığı ilk Fərman şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı olub. Bu Fərmanla 10 minə yaxın şəhid ailəsinə 11 min manat məbləğində birdəfəlik ödəmələrin verilməsi nəzərdə tutulub. Prezident İlham Əliyevin cari il yanvarın 28-də imzaladığı daha bir Fərmanla birdəfəlik ödəmənin verilməsi prosesi artıq 12268 şəhidin vərəsələrini əhatə edib. Bununla yanaşı, indiyə qədər ölkəmizdə şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində çoxsaylı mühüm addımlar atılıb. Şəhid ailələrinə və müharibə əlillərinə, Milli Qəhrəmanlara Azərbaycan Prezidentinin aylıq təqaüdünün məbləği ötən dövrdə mütəmadi olaraq artırılıb. Digər tərəfdən, ölkədə ümumilikdə həyata keçirilən pensiya islahatı nəticəsində əmək pensiyasının minimum məbləği artırılıb. Bununla bağlı son sərəncam 233 min nəfəri əhatə edib. Prezident İlham Əliyevin problemli kreditlərlə bağlı imzaladığı sərəncam isə 850 minə yaxın vətəndaşı əhatə edir. Tələbələrin təqaüdlərinin artırılması barədə sərəncam 110 mindən artıq tələbəni sevindirib, onların maddi vəziyyətinin daha da yaxşılaşdırılmasına təkan olub. Bütün bunları ümumiləşdirsək, dövlət inqilabi addımlar atıb, çoxsaylı sosial layihələr həyata keçirilib. Prezident İlham Əliyevin sosial paketi onun humanistliyindən, siyasətinin mərkəzində vətəndaş amilinin dayanmasından xəbər verir. Bundan başqa, Prezident İlham Əliyev bütövlükdə istəyir ki, Azərbaycanda heç bir vətəndaşın heç bir problemi olmasın, dövlətin, xalqın, millətin təhlükəsizliyi təmin olunsun, beynəlxalq aləmlə münasibətlər daha da yaxşılaşsın.

***- Son bir ildə beynəlxalq münasibətlər sistemində ölkəmizin əldə etdiyi uğurları, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dünya dövlətlərinin və beynəlxalq təşkilatların münasibətini necə qiymətləndirmək olar?***

- Prezident İlham Əliyevin dövründə 2003-cü ildən başlayaraq reallaşdırılan xarici siyasət nəticəsində dünyanın əksər beynəlxalq təşkilatları, dünya siyasətinin formalaşmasında iştirak edən əksər aktorlar Azərbaycanın ərazi bütövlüyünü tanıyıb, ermənilərin ərazilərimizi işğal etməsi faktını dəyərləndirib, işğalçı qüvvələrin bu ərazilərı tərk etməsi barədə müxtəlif qətnamələr qəbul edib. Ulu öndər Heydər Əliyevin zamanında BMT-nin məlum 4 qətnaməsi qəbul olunub. Bu qətnamələr Ermənistan işğalını təsdiq edir və işğal olunan ərazilərdən erməni qoşunlarının çıxarılmasını tələb edir. İslam Əməkdaşlıq Təşkilatının da Cakartada qətnaməsi qəbul olunub və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi dəyərləndirilib, Azərbaycan torpaqlarının işğalı faktı tanınıb. ATƏT-in Minsk qrupu yaradılarkən də müvafiq qərarlar qəbul olunub. Prezident İlham Əliyevin dövründə də bu tipli 12-14 qətnamə beynəlxalq təşkilatlar tərəfindən qəbul olunub. Həmin qətnamələrin mütləq əksəriyyətində Azərbaycanın ərazi bütövlüyü təsdiq olunub, dəstəklənib. Azərbaycanın xarici siyasətində bir neçə mühüm məqam var. Əvvəla Azərbaycan elə bir bölgədə yerləşir ki, iki qarşı-qarşıya duran blokun hərbi-geostrateji maraqları bu bölgədə təmin olunub. Bunlar NATO və KTMT-dir. Bunlar Cənubi Qafqazda təhlükəsizlik mühitini müəyyən edirlər. Bu çərçivədə Prezident İlham Əliyevin seçdiyi ən doğru yol Qoşulmama Hərəkatına üzv olmaqdır. Dünyanın 120 ölkəsinin üzv olduğu bu təşkilata cari il Azərbaycan rəhbərlik edəcək. Lakin bu o demək deyil ki, Azərbaycan NATO və KTMT-dən üz döndərib. Hər iki təşkilatla da Azərbaycanın tərəfdaşlıq münasibətləri davam etdirilir. Azərbaycan NATO-nun Sülh naminə Tərəfdaşlıq Proqramı çərçivəsində tərəfdaşlığını davam etdirir, beynəlxalq sülhün təmin olunmasına töhfə verir, Şimali Atlantika Alyansının üzvü olan dövlətlərdən öz ordu quruculuğumuzda yararlanır, müasir silah-sursat, texnologiya məsələlərini ikitərəfli çərçivədə həll edirik. KTMT üzvü olan bəzi dövlətlərlə, xüsusən də Rusiya ilə hərbi-texniki, hərbi-strateji əməkdaşlıq münasibətləri davam etdirilir. Prezident İlham Əliyevin xarici siyasəti nəinki Azərbaycanın təhlükəsizliyinin təminatı məsələsində, eləcə də gələcəkdə ərazi bütövlüyümüzün təminatı məsələsində, bütövlükdə Azərbaycanın maraqları üzərində qurulmuş kifayət qədər effektli təhlükəsizlik siyasətinin reallaşmasında önəmli rol oynayır. Transmilli dünya ilə bizim nəqliyyat, enerji siyasətimizi də qeyd etmək yerinə düşər. Təsəvvür edin, faktiki olaraq dünya dənizlərinə, okeanlara çıxışı olmayan Azərbaycan dünyanın nəqliyyat-kommunikasiya, logistika mərkəzinə çevrilib. Azərbaycan həyata keçirdiyi layihələrlə dünyanın nəqliyyat, enerji xəritələrində dəyişiklik edib. Bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Azərbaycan Şimal-Cənub, Şərq-Qərb nəqliyyat-kommunikasiya dəhlizlərinin mərkəzində yerləşir və bu kimi beynəlxalq əhəmiyyətli layihələrin reallaşmasında mərkəzi dövlət kimi mühüm rol oynayır. Bütün bunlar Prezident İlham Əliyevin yürütdüyü kifayət qədər hədəfli, sistemli, effektli xarici siyasətin nəticəsidir.

## Elmar Məmmədyarov: Moskva görüşü faydalı və substantiv keçdi



Aprelin 15-də Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinin Moskva görüşü faydalı və substantiv keçdi.

AZƏRTAC xəbər verir ki, bu fikri Azərbaycan jurnalistlərinə müsahibəsində xarici işlər naziri Elmar Məmmədyarov söyləyib.

Nazir qeyd edib ki, əvvəlcə Azərbaycan, Rusiya və Ermənistan xarici işlər nazirləri üçtərəfli görüş keçirdilər. "Çox faydalı görüş oldu. İndiyə qədə danışıqlarda irəliləyişə imkan verməyən məsələləri konkret şəkildə müzakirə etdik. Tam şəkildə irəliləyişin olmasını deyə bilmərəm. Ancaq Ermənistan tərəfi ilə bəzi problem yaradan məqamları ətraflı və daha dərindən başa düşə bildik. Məsələn, Ermənistan tərəfi statusla və təhlükəsizliklə bağlı məsələ qaldırdı. Biz isə qoşunların işğal altında olan torpaqlardan çıxarılması və məcburi köçkünlərin geri qaytarılması məsələsini qaldırdıq. Bu dörd fikir əsasında çox dərin müzakirələr apardıq", - deyə nazir bildirib.

Elmar Məmmədyarov vurğulayıb ki, görüşdə bəzi təkliflər səsləndirilib: "İndidən bu təklifləri açıqlamaq istəmirəm. Bu, həm Rusiya, həm digər həmsədrlər, həm də Azərbaycan və Ermənistan tərəfinin təklifləridir. Biz bu istiqamətdə işimizi davam etdirəcəyik".

Nazir görüşün yekun bəyanatında qeyd olunduğu kimi, Azərbaycan və Ermənistan jurnalistlərinin Bakıya, Yerevana və Dağlıq Qarabağa səfərlərinin təşkili məsələsinə toxunub: "Bu çox maraqlı fikirdir ki, erməni və azərbaycanlı jurnalistlər Yerevana, Bakıya, Dağlıq Qarabağa səfərlər etsinlər. Bundan əlavə, cəbhə bölgəsində kənd təsərrüfatı ilə məşğul olan əhalinin təhlükəsizliyinin təmin olunması barədə razılığa gəldik. Ümid edirəm ki, Ermənistan tərəfi buna hörmətlə yanaşacaq. Sakinlərə öz torpaqlarında işləməyə imkan yaradacaqlar".

# Novruz Məmmədov: “”Azərbaycan beynəlxalq aləmdə etibarlı tərəfdaşa çevrilib”

## *Bakıda Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfrans işə başlayıb*

***Aprelin 15-də Bakıda Azərbaycan Respublikası Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının və Amerika Birləşmiş Ştatlarının Ədliyyə Departamentinin Narkotiklərlə Mübarizə Administrasiyasının birgə təşkilatçılığı ilə Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfrans (IDEC) işə başlayıb. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin fəal iştirakı ilə təşkil edilən, “Qlobal tərəfdaşlıqların səfərbər edilməsi” mövzusuna həsr olunan Bakı konfransının məqsədi narkotiklərin qanunsuz dövriyyəsinə qarşı qlobal mübarizəyə cəlb olunmuş yüksək vəzifəli rəsmiləri bir araya gətirmək, bu bəşəri problemin həlli yollarını müzakirə etmək, fikir və qabaqcıl təcrübə mübadiləsi aparmaqdır. Dünyanın 115 ölkəsindən 432 nümayəndənin qatıldığı beynəlxalq konfrans narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı mövcud olan müasir mübarizə üsullarından mütəxəssislərin bəhrələnməsinə şərait yaradacaq.***






Konfransın açılış mərasimində əvvəlcə fəxri qarovul dəstəsi tərəfindən Amerika Birləşmiş Ştatlarının və Azərbaycan Respublikasının dövlət bayraqları salona gətirildi. Sonra narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizədə həlak olan şəxslərin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Daha sonra ABŞ-ın və Azərbaycanın dövlət himnləri səsləndirildi. Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov beynəlxalq konfransda çıxış edib.

N.Məmmədov bildirib ki, Azərbaycan beynəlxalq sülhə töhfə vermək üçün bütün qlobal platformalarda fəal iştirak edir: “Azərbaycan beynəlxalq aləmdə etibarlı tərəfdaşa çevrilib. Ölkə ABŞ-ın antiterror əməliyyatına qoşulanlardan biri olub. Azərbaycan və ABŞ səmərəli əməkdaşlıq edirlər”. Baş nazir vurğulayıb ki, Azərbaycanın həyata keçirdiyi Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP kimi böyük enerji layihələri dünyanın enerji xəritəsini dəyişib: “Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır”. O əlavə edib ki, narkomaniya və narkotiklərin qanunsuz dövriyyəsi dünyanı narahat edən ən ciddi problemlərdən biridir: “Narkotiklərin qanunsuz dövriyyəsi həm də terrorizmin maliyyə mənbəyi kimi beynəlxalq təhlükəsizliyə ciddi təhdidlər törədir. Azərbaycan bu bəlanın ölkəmizdə yayılmasına qarşı qətiyyətli mövqe nümayiş etdirir, narkotiklə mübarizəni prioritet istiqamət kimi müəyyən edib, bu sahədə müvafiq beynəlxalq konvensiyalara qoşulub. Bu istiqamətdə hüquq-mühafizə orqanları qarşısında ciddi vəzifələr qoyulub. Son 5 il ərzində Azərbaycanda 8 ton 354 kq narkotik vasitə dövriyyədən çıxarılıb”.

Baş nazir həmçinin qeyd edib ki, 25 ildən çoxdur ki Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətraf 7 rayonunun erməni işğalı altında olması bu ərazidə beynəlxalq terrorizm və narkotiklərin qanunsuz dövriyyəsi üçün səmərəli şərait yaradır. Baş nazir Novruz Məmmədov çıxışında qeyd edib ki, Azərbaycan artıq beynəlxalq aləmdə özünü etibarlı tərəfdaş kimi təsdiq etmişdir. Azərbaycanın təşəbbüskarı və iştirakçısı olduğu transmilli enerji, nəqliyyat-logistika layihələri ölkəmizi qlobal və regional miqyasda mühüm tərəfdaşa çevirmişdir. Respublikamız Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən enerji və nəqliyyat dəhlizlərində aparıcı rola malikdir. Tərəfdaşlarımızla birgə həyata keçirdiyimiz Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP və tikilməkdə olan TAP boru kəmərləri neft və qaz resurslarını Avropaya nəql etməklə böyük bir regionun enerji xəritəsini tamamilə dəyişmişdir. Bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır: “Azərbaycan Amerika Birləşmiş Ştatları ilə bir çox sahələrdə, o cümlədən təhlükəsizlik, qlobal risk və təhdidlərə qarşı mübarizə sahələrində qarşılıqlı faydalı əməkdaşlıq edir. ABŞ-ın rəhbərlik etdiyi beynəlxalq antiterror koalisiyasına qoşulan ilk dövlətlərdən biri Azərbaycan olmuşdur. Azərbaycan və ABŞ regional və qlobal səviyyədə terrorizmlə, narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizədə birgə fəaliyyət göstərirlər. Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəni vahid strategiya çərçivəsində həyata keçirmək Azərbaycan dövlətinin əsas prioritetlərindən biridir.”

Azərbaycan Respublikası Baş nazirinin müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri Əli Həsənov konfransın yüksək səviyyədə təşkili üçün yaradılan şəraitə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Beynəlxalq əməkdaşlığın gücləndirilməsi, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizəyə dair mühüm məsələlərin müzakirəsi, təcrübə və məlumat mübadiləsi baxımından Bakı konfransının önəmini vurğulayan Baş nazirin müavini qeyd etdi ki, dünyada geniş iqtisadi inteqrasiyanın, ticarət və böyük həcmdə yükdaşımaların təşkili üçün nəqliyyat əlaqələrinin genişlənməsi narkotik vasitələrin yayılması ilə müşayiət olunur. Azərbaycan Prezidenti İlham Əliyevin son 15 ildə yürütdüyü uğurlu iqtisadi siyasət nəticəsində iqtisadiyyatımızın tərəqqisi, böyük beynəlxalq layihələrin icrası, Bakı-Tbilisi-Qars dəmir yolunun, beynəlxalq dəniz limanının, avtomobil yollarının, hava limanlarının inşası və turizm sektorunun inkişafı ölkəmizə marağı artırıb. Bunun nəticəsində yük daşımalarının hədsiz dərəcədə artması beynəlxalq narkomafiyanın diqqətindən yayınmır və narkotik vasitələrin qanunsuz daşınması üçün cəhdlər göstərilir. Ölkəmizdə narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirlərindən danışan Əli Həsənov bildirdi ki, ümummilli lider Heydər Əliyevin 1996-cı il 26 avqust tarixli Fərmanı ilə Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının yaradılması ilə bu problemlə mübarizə dövlət səviyyəsinə qaldırılıb. Azərbaycan beynəlxalq birliyin bütün səylərini dəstəkləyərək BMT-nin müvafiq konvensiyalarına qoşulub, ölkəmizdə beynəlxalq standartlara uyğun normativ milli hüquqi baza yaradılıb.

Azərbaycanda narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizəyə dair üç Dövlət Proqramının uğurla icra edildiyini vurğulayan Baş nazirin müavini dördüncü proqramın hazırlanmasının artıq başa çatdırıldığını qeyd etdi. Bildirdi ki, ölkəmizdə vətəndaşların sağlamlığının qorunması, asudə vaxtlarının səmərəli təşkili, faydalı işlə məşğul olmalarına şərait yaradılması məqsədilə genişmiqyaslı tədbirlər görülüb, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə beynəlxalq əməkdaşlıq diqqət mərkəzində saxlanılıb, mötəbər qurumlarla və bir sıra dövlətlərlə sıx münasibətlər qurulub.

Narkotik vasitələrin qanunsuz dövriyyəsinin milli, regional və beynəlxalq səviyyələrdə cinayət növü kimi qəbul olunmasını, bu problemin həllinin beynəlxalq əməkdaşlıq tələb edən ümumi məsuliyyətə çevrildiyini deyən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev bildirdi ki, bu baxımdan, beynəlxalq təşkilatların, dünya ölkələrinin aidiyyəti qurumlarının dəstəyi ilə narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı birgə əməkdaşlıq çərçivəsində mübarizə tədbirləri mühüm əhəmiyyət kəsb edir. Komitə sədri qeyd edib ki, bəşəriyyətin bu dəhşətli bəlasına qarşı ölkəmizin ayrı-ayrı dövlət strukturları, hüquq-mühafizə orqanları, qeyri-hökumət təşkilatları, kütləvi informasiya vasitələri, təhsil və səhiyyə qurumları birgə mübarizə aparmaqla bu bəlanın qarşısının alınmasında uğurla fəaliyyət göstərir.

ABŞ-ın Azərbaycandakı səfiri Örl Litzenberqer ölkəmizdə yenicə fəaliyyətə başlamasına baxmayaraq, xalqımızın yüksək qonaqpərvərliyinin qısa müddətdə onda böyük məmnunluq doğurduğunu ifadə etdi.

Diplomat bildirdi ki, Azərbaycan Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfransa (IDEC) yüksək səviyyədə ev sahibliyi etməklə bu mühüm məsuliyyətin öhdəsindən uğurla gəlib. O, konfransın yüksək səviyyədə təşkilinə görə Azərbaycan Prezidenti İlham Əliyevə və aidiyyəti şəxslərə və qurumlara minnətdarlığını bildirdi. Narkomanlığın və narkotik vasitələrin qanunsuz dövriyyəsinin cəmiyyətdə ciddi fəsadlara yol açdığını diqqətə çatdıran diplomat bu sahədə uğurlu mübarizədə beynəlxalq əməkdaşlığın önəmini xüsusi vurğuladı. Qeyd etdi ki, Azərbaycan bu istiqamətdə beynəlxalq əməkdaşlığa mühüm töhfələr verir.

Səfir bildirdi ki, ABŞ-ın etibarlı tərəfdaşı olan Azərbaycan 2002-ci ildən Əfqanıstanda beynəlxalq sülhməramlı əməliyyatlarda fəal iştirak edir, həmin missiyanın dəstəklənməsi üçün fəal logistik dəstək verir. Bu töhfələr narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə də mühüm rol oynayır. Azərbaycan bu dəstəyi ABŞ ilə yanaşı, digər ölkələrə də göstərir. Açılış çıxışlarından sonra birgə foto çəkdirildi. Sonra satış-sərgisinə baxış keçirildi. Daha sonra Beynəlxalq Konfrans işini regional işçi qrupların müzakirəsi və seminar sessiyaları ilə davam etdirdi.

# Naxçıvanda müşavirə keçirilib

***Aprelin 15-də "Naxçıvan Muxtar Respublikasında ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinin vəziyyəti və innovasiyaların dəstəklənməsi barədə" müşavirə keçirilib.***






Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirəni açaraq deyib: Ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında innovasiyalar uğurla tətbiq olunur. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, muxtar respublikanın bütün ərazisi fiber-optik xətlə, stasionar və mobil rabitə xidməti, eləcə də sürətli internetlə təmin edilmişdir. Bu gün muxtar respublikanın ən ucqar kəndində yaşayan insanlar da dünyada və ölkəmizdə gedən prosesləri izləyir, fikir və mülahizələrini bildirirlər. Təhsil müəssisələrinin yeni texnologiyalar və internetlə təminatı isə gənclərin hazırlıq səviyyəsini və innovasiyalara çıxış imkanlarını xeyli yüksəltmişdir. Ötən illərdə muxtar respublikada innovasiyaların tətbiqi sahəsində yaradılan şərait imkan verir ki, gənclərin ideyaları dəstəklənsin və startap layihələri uğurla həyata keçirilsin. Muxtar respublikada ailə təsərrüfatlarının inkişafı, Ağbulaq Kənd Turizm İstirahət Bölgəsinin yaradılması, müxtəlif festivalların keçirilməsi və digər tədbirlər uğurlu startap layihələrindəndir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Surə Seyid çıxış edərək deyib ki, muxtar respublikada innovativ inkişafa dayanan təhsil siyasəti həyata keçirilir. Təhsilin inkişafına dair yeni fərman və sərəncamlar imzalanır, maddi-texniki bazanın möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamı elmin nəzəriyyə və təcrübə ilə inteqrasiyasına, təhsilə fərqli yanaşma mexanizminin formalaşmasına, qarşılıqlı və çoxşaxəli fəaliyyət planlarının hazırlanmasına və ən əsası dövlət kadr siyasətinin inkişafına səbəb olub. Bu Sərəncam səriştəyə əsaslanan insan resurslarını müasirləşdirmək, səmərəli əməkdaşlıq mexanizmi yaratmaq, müasir infrastruktur qurmaq, dünya təhsil standartlarına uyğun təhsil modeli formalaşdırmağa şərait yaradıb. Ötən dövrdə təhsil sahəsində hamiliklə bağlı kompleks tədbirlər, seminar və konfranslar, təcrübələr həyata keçirilib, təhsil yarmarkalarında pedaqoji profilli ixtisasların məzunlarının işlə təminatına tələbat artıb.

Naxçıvan Muxtar Respublikasının rabitə və yeni texnologiyalar naziri Rövşən Məmmədov deyib ki, muxtar respublikada əhalinin bütün təbəqələri müasir rəqəmsal xidmətlərdən istifadə imkanı əldə ediblər. Hazırda muxtar respublikanın telekommunikasiya əlaqələrini təmin edən 1600 kilometrdən artıq optik kabel xətləri mövcuddur. Fiber optik kabel xətləri üzərində qurulan iri tutumlu telekommunikasiya şəbəkələri elektron xidmətlərin inkişaf etdirilməsinə, o cümlədən elektron hökumət, bank, maliyyə, vergi, təhsil, səhiyyə və digər sahələr üzrə elektron xidmətlərin inkişafına təkan verib. Naxçıvanın beynəlxalq transavroasiya fiber optik magistrallarına 2, qlobal internet sisteminə 4 tərəfli çıxışı vardır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 15 iyul tarixli Fərmanına əsasən "Elektron hökumət" portalı yaradılıb. "Bir pəncərə" prinsipi əsasında fəaliyyət göstərən 33 dövlət təşkilatı tərəfindən hazırda 291 elektron xidmət istifadəçilərə təqdim olunur. Bundan əlavə, 150-yə yaxın dövlət və ictimai təşkilata elektron poçt ünvanları və domen adları verilib, həmin təşkilatların internet səhifələri hazırlanaraq qlobal şəbəkədə yerləşdirilib. Hazırda muxtar respublika üzrə 236 elm və təhsil müəssisəsi, 17 muzey İnteraktiv Təhsil Sisteminə qoşulub. Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində yaradılan Distant Təhsil Mərkəzində fiziki məhdud imkanlı uşaqların sayı 24, audio kitabxanadan mütəmadi istifadə edənlərin sayı isə 375 nəfərdir.

Müşavirədə Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev, Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Nicat Babayev və Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri İsmayıl Hacıyev aidiyyatı üzrə məlumat veriblər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirədə çıxış edərək deyib: Naxçıvan Muxtar Respublikasında son illərdə təhsilin davamlı inkişafını təmin edən sərəncamların qəbul edilməsi, güclü təhsil infrastrukturunun, maddi-texniki bazanın yaradılması, yüksək ixtisaslı kadr hazırlığını təmin edən dövlət proqramlarının, layihələrin uğurlu tətbiqi təhsilin beynəlxalq standartlar səviyyəsinə uyğunlaşmasına təkan verir. "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli Sərəncamı ilə 3 ali, 3 orta ixtisas təhsili müəssisəsini əhatə edən 98 ixtisas və 1 lisey 31 təşkilata hamiliyə verilmişdir. Bu Sərəncamla hami təşkilatlar və təhsil müəssisələri arasında əlaqə genişlənmiş, qarşılıqlı əməkdaşlıq insan kapitalının inkişafına, iqtisadi cəhətdən dayanıqlı əmək bazarının yaradılmasına, təhsilverənlə işəgötürən arasında tələblərin formalaşmasına xidmət etmişdir.

Ali Məclisin Sədri deyib: Bu gün Naxçıvan Dövlət Universitetində 60 ixtisas üzrə bakalavr, 42 ixtisas üzrə magistr, 15 ixtisas üzrə rezident, 11 ixtisas üzrə əlavə təhsil, Naxçıvan Müəllimlər İnstitutunda 8 ixtisas üzrə bakalavr, 3 ixtisas üzrə magistr, "Naxçıvan" Universitetində 15 ixtisas üzrə bakalavr, 6 ixtisas üzrə magistr, Naxçıvan Tibb Kollecində 8, Naxçıvan Dövlət Texniki Kollecində 8, Naxçıvan Musiqi Kollecində 10, peşə liseyi və məktəblərində isə ümumilikdə 22 ixtisas üzrə kadr hazırlanır. Kadr hazırlığı aparılan ixtisaslar muxtar respublikanın tələbatına tam uyğunlaşdırılmışdır. Hər il muxtar respublikada ali və orta ixtisas təhsili müəssisələrini 2200-dən artıq məzun bitirir. Peşə liseyi və məktəblərində isə hər il 3 mindən çox gənc müxtəlif peşələrə yiyələnir. Daim yenilişən və təhsilin inkişafını tələb edən informasiyalı cəmiyyət kadr hazırlığı işinin yeni müstəvidə hazırlanmasını tələb edir. Ali Məclis Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamı kadr hazırlığına müasir yanaşma və vətəndaşın cəmiyyətə hərtərəfli inteqrasiyasını təmin edir. Yeni Sərəncamla 3 ali və 3 orta ixtisas təhsili müəssisəsini əhatə edən 109 ixtisas və 1 lisey müvafiq 36 təşkilata hamiliyə verilmişdir. Əlavə olaraq "İdeyadan başlanğıca" devizi ilə hami təşkilatlara hamiliyə verilən təhsil müəssisələri arasında innovasiyaya və dayanıqlı inkişafa əsaslanan yaradıcı düşüncəni və elmi-texniki tərəqqini əks etdirən yeni layihələrin - startapların həyata keçirilməsi nəzərdə tutulub.

Ali Məclisin Sədri aid təşkilatlara tapşırıqlar verərək deyib: Müasir dövrdə təhsil cəmiyyətin inkişafını təmin edən aparıcı istiqamət kimi davamlı olaraq yeniləşmə, ən son texnologiyalardan istifadə yolu ilə mütərəqqi ideyaların, bilik və bacarıqların tətbiqi xarakterini alır. Müasir əmək bazarında praktik bilik və bacarıqlara yiyələnmiş kadrlara tələbat artır. Buna görə də hami təşkilatlar ali və orta ixtisas təhsili müəssisələri ilə birlikdə kadr hazırlığına diqqəti artırmalı, qarşılıqlı əməkdaşlıq imkanlarından daha səmərəli istifadə etməli, kadrların ixtisas üzrə təcrübi bilik və bacarıqlarının artırılmasına nail olmalıdırlar. Bu səbəbdən hami təşkilatlar və hamiliyə verilən qurumlar arasında görüşlər intensiv xarakter daşımalıdır. Hami təşkilatlarla hamiliyə verilən ixtisaslar arasında əməkdaşlıq yeni ideya mübadiləsinə və innovasiyaların yaranmasına gətirib çıxara bilər. Bu zərurətdən yaranan "Startap Naxçıvan" hərəkatının əsas məqsədi muxtar respublikada investisiya mühitini yaxşılaşdırmaq, yaradıcı düşüncəni və inkişafa xidmət edən ən yaxşı layihələri üzə çıxarmaq, innovativ ideyaların uğurlu biznes sahəsinə çevrilməsinə dəstək olmaqdır.

Qeyd olunub ki, təqdim edilən layihələrin son məqsədi real biznesin qurulmasına, xidmətlərin, sosial servislərin təqdim edilməsinə yönəlməli və effektiv innovasiyalar üzərində qurulmalıdır. Elmi inkişafa xidmət edən layihələr daha çox informasiya texnologiyalarının nailiyyətlərini özündə əks etdirməli, ölkədə yeni əmək bazarının və təhsil iqtisadiyyatının formalaşmasına xidmət etməlidir. Ali və orta ixtisas təhsili müəssisələri hamiliyə verilən təşkilatlarla birlikdə "Startap Naxçıvan" hərəkatı çərçivəsində startapçılar üçün yerli və beynəlxalq səviyyəli təlimlər təşkil etməlidir.

Naxçıvan Dövlət Universitetində təlimlərin keçirilməsində Distant Təhsil Mərkəzinin imkanlarından istifadə edilməlidir. Hami təşkilatlar uğurlu layihələrin investorlara təqdim edilməsində investor və startapçı münasibətlərin qurulmasında əlaqələndirici qismində iştirak etməlidir. Hami təşkilatlar qarşıya qoyulan məqsədlərin həyata keçirilməsi ilə əlaqədar startap görüşləri və müzakirələrinin təşkil olunmasına, qaliblərə mükafatların təqdim edilməsinə, layihələrin birbaşa maliyyələşməsinə nəzarət və onların investorlara və müxtəlif fondlara təqdiminə köməklik göstərməlidirlər. Layihələr təqdim olunduqdan sonra Startap günləri keçirə, həmçinin respublika və beynəlxalq səviyyəli müsabiqələrə qatıla bilərlər.

Ali Məclisin Sədri deyib: Hami təşkilatlar və hamiliyə verilən təhsil müəssisələri yeni formalaşmaqda olan startapçıları, startap komandalarını əmək bazarının spesifik xüsusiyyətləri ilə tanış etməli, startapçılar arasında əlaqələri gücləndirmək məqsədilə hər il "Startap festivalı" keçirməlidir. Rabitə və Yeni Texnologiyalar Nazirliyi aid təşkilatların təklifləri əsasında layihələrə, o cümlədən startap fəaliyyətinə nəzarət mexanizmini asanlaşdıran internet portalının yaradılmasını təmin etməlidir. Təhsil Nazirliyi ali məktəblərin professor və müəllim heyətləri ilə yeni dərslik və dərs vəsaitlərinin müzakirəsinə diqqəti artırmalı, Mədəniyyət Nazirliyi açıq dərslərin, ustad dərslərinin, dəyirmi masa və müzakirələrin keçirilməsini diqqətdə saxlamalı, tələbələrin mütaliəsinin, tarix və mədəniyyətimizə dair biliklərinin zənginləşməsi üçün müvafiq ixtisasların buklet, kitab və broşurlarla təmin olunmasına köməklik göstərməlidir. Gənclər və İdman Nazirliyi Əlahiddə Ümumqoşun Ordu ilə birgə gənclərin hərbi vətənpərvərlik işini diqqətdə saxlamalı, Gənclər Fondu ilə birlikdə maarifləndirici tədbirlərin keçirilməsini təmin etməlidir. Gənclər ideya və bacarıqlarına uyğun istiqamətləndirilməli, onların ideyaları sosial şəbəkələr vasitəsilə yayılmalı, fərqlənən gənclər mükafatlandırılmalıdır.

Tapşırılıb ki, Səhiyyə Nazirliyi hami ixtisaslarla birgə elmi konfransların təşkilinə diqqəti artırsın, Tibb fakültəsi müəllimlərinin nəşr etdikləri dərs vəsaiti və dərsliklərin səhiyyə müəssisələrində müzakirələrini keçirsinlər. "Auditoriyadan xəstəxanaya" devizi altında xəstəxanalardan Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin və Tibb kollecinin tələbələrinə cərrahiyyə prosesinin onlayn yayımını təşkil etsinlər. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırılır ki, əmək bazarının tələblərinə uyğun kadr hazırlığı işinə nəzarəti artırsın, sosial layihələrin həyata keçirilməsini davam etdirsin. Turizm Departamenti muxtar respublikanın turizm potensialının internet üzərindən tanıdılması və təbliğində tələbələrin iştirakını, onların yaradıcı baxışından səmərəli istifadəni təmin etsin.

Müşavirədə Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinə tapşırılıb ki, "Naxçıvan Muxtar Respublikasında startapın inkişaf perspektivləri" adlı respublika konfransının keçirilməsini təmin etsin. Həmçinin "Kəşf et, öyrən, yarat!" devizi altında startap günlərinin keçirilməsi təmin edilsin. Startap fəaliyyətinə nəzarət mexanizmini asanlaşdıran internet portalının yaradılması və fəaliyyətinə nəzarət, startapla bağlı məlumatlandırıcı buklet, broşur və kitabçaları hazırlasın.

Ali Məclisin Sədri qarşıda duran vəzifələrin icrasında müşavirə iştirakçılarına uğurlar arzulayıb. Sonda "Startap layihələri və innovativ inkişaf" filminə baxış olub.

# Azərbaycan dövlətinin qətiyyətli mövqeyi təcrid olunmuş Ermənistanı təşvişə salıb

*İlham Əliyev: "Bu gün biabırcasına hakimiyyətdən qovulmuş Sarkisyan rejimi, əslində, Ermənistan dövlətçiliyinin iflasıdır"*



***Son günlər Ermənistan mətbuatında Nikol Paşinyan hakimiyyətinin siyasətini tənqid edən yazıların sayı artıb. Ekspertlər rəsmi İrəvanın səriştəsiz xarici siyasət yeritdiyindən daha açıq bəhs edir, baş nazir Nikol Paşinyanın xalqla qeyri-səmimi davrandığı barədə yazırlar. Konkret olaraq, erməni ictimaiyyətinin Dağlıq Qarabağla bağlı danışıqlarda nələrin müzakirə edildiyindən xəbərdar olmadığı haqqında informasiyalar yayılır. Hakimiyyət nümayəndələrinin bunları gizlətməsinin səbəbini anlamağa çalışırlar. Burada maraqlı olan özünü xalqın içindən çıxmış siyasətçi hesab edən və bu şüar altında hakimiyyətə yiyələnən N.Paşinyanın reallığı xalqdan gizlətməsidir. Aydın görünür ki, baş nazir və komandası öz cəmiyyəti ilə səmimi olmağı bacarmır. Səbəb nədir?***

Doğrudan da, hər bir ölkə öz siyasi lideri ilə tanınır və sözünü deyir. Bu gün Azərbaycan xalqı və dövləti xoşbəxtdir ki, müstəqil Azəbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyev və bu siyasəti davam etdirən Onun layiqli davamçısı Prezident İlham Əliyev kimi qətiyyətli rəhbəri var. Son 16 ilə nəzər salsaq, görərik ki, daxili və xarici siyasətin bütün prioritet istiqamətlərində rəsmi Bakı son dərəcə səmərəli kurs həyata keçirib. Azərbaycan dövlət olaraq inkişaf edib, müstəqillik daha da möhkəmlənib. Çoxlu sayda beynəlxalq layihələrdə Azərbaycan təşəbbüskar və əsas iştirakçı kimi fəaldır. Nəqliyyat-logistika layihələrində Bakının xüsusi yeri vardır. Uzaq Çindən tutmuş Rusiya və İran da daxil olmaqla, Avropaya qədər geniş bir məkanda Azərbaycanın sosial-iqtisadi, mədəni, geosiyasi, enerji və s. təhlükəsizlik məsələlərində rolu daim yüksəlir.

Bunun fonunda Ermənistan səbatsız, ziddiyyətli və uğursuz xarici siyasəti ilə yadda qalıb. İşğalçı ölkənin baş naziri Nikol Paşinyan hakimiyyətə gəldikdən sonra isə, bu proses daha da dərinləşib. Uzun müddətdir ki, Rusiyanın havadarlığına sığınmış bir ölkə ağasını dəyişmək qərarına gəlibsə, onun hansı təşkilatda hörməti ola bilər? Bu da mümkün deyildir.

Deməli, Azərbaycana və Ermənistana olan münasibətlərdə fərqlərin olması təsadüfi deyil. Hər bir şeyin öz konkret səbəbi vardır. Bax, bu, ondan ibarətdir ki, Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarını qeyd-şərtsiz azad edir və eyni zamanda, qonşu dövlətlərə olan əsassız ərazi iddialarından birdəfəlik əl çəkir. Bu halda, Ermənistan xilas ola bilər. Erməni siyasi liderləri Ermənistanın xilas olmasını istəyirlərmi? Bu suala cavab aydın deyil.

### Paşinyanın ətrafı nə etdiyini bilmir

Xüsusilə də, erməni müdafiə nazirinin bir-birinə zidd bəyanatları nədən xəbər verdiyi də bilinmir. Necə deyərlər, şap elə bilir şupdadır, şup da elə bilir ki, bütün günahlar Nikoldadır. Elə Ermənistanın müdafiə naziri David Tonoyan Nyu-Yorkda erməni diasporu ilə görüşdə söylədiyi fikirlərə diqqət yetirmək kifayətdir. Tonoyan əvvəlcə Azərbaycanı yeni müharibə ilə təhdid edərək, "Yeni müharibə, yeni ərazilər" bəyanatını verir, Paşinyan də bu bəyanata dəstək ifadə edir. Bu günlərdə isə, D.Tonoyan sözlərini dəyişərək, bu dəfə sülhdən danışaraq, verdiyi "müharibə" bəyanatından geri çəkilib bildirir ki, Azərbaycan və Ermənistan orduları müharibəyə deyil, sülhə hazırlaşmağa çalışmalıdırlar.

Ekspertlərin sözlərinə görə, Ermənistan müdafiə nazirinin bir həftənin içində, öncə, Azərbaycanı yeni ərazilərin işğalı ilə hədələməsi, sonra Azərbaycan və Ermənistan ordularının müharibəyə deyil, sülhə hazır olmasını bəyan etməsi, erməni hakimiyyətinin səriştəsizliyin nəticəsi olduğunu bildirirlər.

### Elxan Şahinoğlu: "Tonoyan 180 dərəcə fərqli "biz sülh istəyirik" deyirsə, bu açıqlamanın da arxasında Nikol Paşinyanın istəyi dayanır"

"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu bildirdi ki, bu gün Tonoyan 180 dərəcə fərqli "biz sülh istəyirik" deyirsə, bu açıqlamanın da arxasında Nikol Paşinyanın istəyi dayanır. Çünki özü də son çıxışında sülhün vacibliyindən ağız dolusu danışıb. Paşinyan və onun nazirlərinin tez-tez mövqelərini dəyişməsi Ermənistanın indiki hakimiyyətinin Qarabağ münaqişəsinin həlli ilə bağlı baxışının formalaşmaması ilə əlaqəlidir: "Paşinyan özü də etiraf etmişdi ki, köhnə hakimiyyətin xarici işlər naziri ilə qapalı görüş keçirib, keçmiş danışıqların təfərrüatlarını dəqiqləşdiriblər. Elə Paşinyanın Azərbaycan Prezidenti ilə 3 görüşü də münaqişənin həllinə təsir etməyən kiçik detallar üzərində qurulmuşdu. Bu arada, ən doğru açıqlama Paşinyanın xanımından gəlib. Erməni baş nazirin xanımı deyib ki, Ermənistanın minlərlə əsgəri heç nəyə görə Qarabağda ölüb. Bəli, illərdir biz də bunu deyirik. Böyük ehtimalla xanımı kimi Paşinyan da evdə bu ifadəni işlədib. Sadəcə, özü bu ifadəni rəsmən işlətsə hakimiyyətini laxladar, ona görə də, xanımının açıqlaması vasitəsilə erməni cəmiyyətinin nəbzini yoxlayır".

Bax budur Azərbaycan diplomatiyası qarşısında Paşinyanın diz çökməsi. Baş verənlər ondan xəbər verir ki, işğalçıya qarşı təzyiqi bir an belə azaltmaq olmaz. Hücum diplomatiyası + snayperlərimizin dəqiq atəşləri davam etməlidir və bu gün atəşkəsin pozulması bizi yox, Ermənistan hakimiyyətini narahat etməlidir və edir də. Deməli, Paşinyan bununla manevr siyasəti aparır. Çünki mərhələli həll planında maraqlı deyil. Paşinyan çalışır ki, münaqişənin həllində danışıqlar prosesi davam edərək, status-kvo qorunsun. Bu da keçmiş hakimiyyətin siyasətinin davamıdır. Ancaq Paşinyan anlamalıdır ki, Azərbaycan bu kimi danışıqlara imkan verməyəcək. Əgər bir ölkəyə quldur dəstə rəhbərlik edirsə, bu siyasətin sonu yoxdur.

### "Ermənistanı quldur dəstə idarə edir və bu gün bunu erməni xalqı deyir"

Bu faktor əsas amildir. Çünki bir ölkəyə quldur dəstə rəhbərlik edirsə, o, ölkənin gələcəyindən danışmağa belə dəyməz. Azərbaycan Prezidenti İlham Əliyev çıxışdarında erməni tərəfinə dəfələrlə sərt xəbərdarlıqlar edərək bildirib ki, bu gün Ermənistan ordusu bizimlə rəqabət apara bilməz: "Ermənistan indi çox ağır vəziyyətə düşüb. İyirmi il Ermənistana rəhbərlik etmiş kriminal diktatura rejimi çöküb. Mən dəfələrlə demişdim ki, Ermənistanı quldur dəstə idarə edir və bu gün bunu erməni xalqı deyir. Ancaq əfsuslar olsun ki, Ermənistanda rəhbərliyə gəlmiş yeni simalar öz məsuliyyətini dərk etmir, sarsaq bəyanatlar verirlər və təmas xəttində, Ermənistan-Azərbaycan sərhədində gərginliyə rəvac verən addımlar atırlar".

Prezident İlham Əliyev onu da bildirib ki, işğalçı ölkədə korrupsiyaya qurşanmış oğru rejiminin hökm sürdüyünü erməni xalqı da deyir: "Bu gün biabırcasına hakimiyyətdən qovulmuş Sarkisyan rejimi, əslində, Ermənistanın dövlətçiliyinin iflasıdır. Çünki əgər müstəqilliyinin 26 ilində, onun 20 ili bu hakimiyyət altında keçmişdisə, onda bu dövlətin hansı müsbət cəhətləri var?! Ermənistan uğursuz dövlətdir. Ermənistan dövlətçiliyi iflasa uğrayıb. Onların qəhrəmanları, onların generalları oğrulardır, onların ordusu oğru ordusudur. Bunu indi Ermənistan xalqı görür və Ermənistan hakimiyyəti deyir".

Beləliklə, siyasi istiqaməti məlum olmayan və ümumiyyətlə, dövlətçilikdə naşı olan Paşinyanın nala-mıxa vurması ölkədə hansısa yenilik vəd etmir. Əksinə, ermənilər daha aydın görürlər ki, onların rifahı, ümumiyyətlə, xalq olaraq varlıqları Azərbaycanla normal münasibətlərdən keçir. Belə münasibətlər qurulmayana, işğal faktına son qoyulmayana qədər Azərbaycan Ermənistanın dövlət olaraq çöküşünü davam etdirəcək.

**A.SƏMƏDOVA**

---

## Hikmət Hacıyev: Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi dünyada sülh və təhlükəsizliyin bərqərar olmasına töhfə verəcək



Çinin təklif etdiyi "Bir kəmər, bir yol" təşəbbüsü inklüziv qarşılıqlı fəaliyyət üçün çox böyük imkanlar yaradır. Bunu Azərbaycan Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "Sinhua" agentliyinə müsahibəsində deyib.

H.Hacıyev qeyd edib ki, bu təşəbbüs qarşılıqlı faydalı münasibətlərə və tərəfdaşlığa əsaslanan hərtərəfli əməkdaşlıq xarakteri daşıyır: "Biz "Bir kəmər, bir yol" təşəbbüsü və Azərbaycanın inkişafının aktual gündəliyi arasında böyük uyğunluq görürük. Azərbaycan "Bir kəmər, bir yol" çərçivəsində layihələrdə iştirak etməyə həmişə hazırdır. Bu baxımdan biz iki ölkə arasında iqtisadiyyat, ticarət, investisiya, maliyyə və bir sıra digər sahələrdə gələcək əməkdaşlığı səbirsizliklə gözləyirik".

"Bir kəmər, bir yol" çərçivəsində beynəlxalq əməkdaşlıq üzrə yüksək səviyyəli II Forum aprelin sonunda Pekində keçiriləcək. PA rəsmisi bu Forumun fikir mübadiləsi və müxtəlif ölkələrin fəaliyyətinin əlaqələndirilməsi üçün meydan olacağına ümidvar olduğunu bildirib: "Forum "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində praqmatik əməkdaşlığın inkişafı istiqamətində praktiki fəaliyyətin gələcək müzakirələri üçün əla məkan olacaq".

H.Hacıyev Azərbaycan-Çin münasibətlərinə də toxunub. O bildirib ki, Azərbaycan Çin Xalq Respublikası ilə humanitar və energetika sahələrində əməkdaşlıq qurur.

Şöbə müdiri ikitərəfli iqtisadi və ticari münasibətləri bundan sonra da işgüzar və şəxsi təmaslar, hökumətlərarası əməkdaşlıq mexanizmləri və müxtəlif komissiyalar vasitəsilə təşviq etməyi təklif edib: "Azərbaycan və Çinin iqtisadiyyat, ticarət, kənd təsərrüfatı, energetika, neft-kimya, turizm və s. sahələrdə əməkdaşlığı özündə bir çox imkanlar daşıyır".

H.Hacıyev əlavə edib ki, Azərbaycan Çin investisiyalarının artmasını alqışlayır: "Hər iki ölkə öz xarici siyasəti çərçivəsində beynəlxalq səviyyədə qarşılıqlı hörmətə əsaslanan münasibət qurmağa çalışır. Həmçinin tərəflər Şanxay Əməkdaşlıq Təşkilatı daxil olmaqla, çoxtərəfli regional və beynəlxalq qurumlar çərçivəsində əməkdaşlıq edirlər".

PA rəsmisi xatırladıb ki, Azərbaycan 2022-ci ilədək Qoşulmama Hərəkatına sədrlik edəcək: "Bu institutun qlobal səviyyədə etimadın, sülh və təhlükəsizliyin möhkəmləndirilməsində potensialı var. Sədrliyimiz dövründə Hərəkatın daha da möhkəmlənməsinə kömək edəcəyik, həmçinin planetimizdə sülh və təhlükəsizliyin bərqərar olmasına töhfə verəcəyik".

## Bakıda V Avropa İttifaqı-Azərbaycan biznes forumu keçiriləcək



Avropa İttifaqının (Aİ) Azərbaycandakı nümayəndəliyi Alman-Azərbaycan Xarici Ticarət Palatası ("AHK Azərbaycan") ilə əməkdaşlıq çərçivəsində iyunun 13-də Bakıda V Avropa İttifaqı-Azərbaycan biznes forumunu keçirəcək. Builki tədbirdə biznes mühiti mövzusu üzrə plenar sessiya və kənd təsərrüfatı, əlaqələndiricilik və turizm sektorları üzrə paralel sessiyaların keçirilməsi nəzərdə tutulur.

# YAP Şuşa şəhər təşkilatı Gənclər Birliyinin V konfransı keçirilib



Yeni Azərbaycan Partiyası Şuşa şəhər təşkilatı Gənclər Birliyinin V konfransı keçirilib. Konfransda əvvəlcə Ulu Öndər Heydər Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad edibilib.

Sonra tədbirdə YAP Şuşa şəhər təşkilatı Gənclər Birliyinin fəaliyyətinə həsr olunmuş foto-slayd təqdim olunub.

Konfransı giriş sözü ilə açan Şuşa şəhər İcra Hakimiyyətinin başçısı Bayram Səfərov bildirib ki, bu gün ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurlu gənclər siyasəti həyata keçirilir. Onun sözlərinə görə, bu siyasətin təməlində Azərbaycan Xalqının Ümummilli Lideri Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kurs dayanır: "Görülən işlərin nəticəsidir ki, bu gün gənclərimizin səsi mötəbər beynəlxalq kürsülərdən gəlir. Bütövlükdə gənclər cəmiyyətimizdə aparıcı rol oynayırlar". Natiq qeyd edib ki, gənclərin fəallığı, onların intellekti, bilik və bacarıqları respublikamızın inkişafına töhfələr verir.



Tədbirdə hesabat məruzəsi ilə çıxış edən YAP Şuşa şəhər təşkilatı Gənclər Birliyinin sədri Yapon Hacıyev Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət gənclər siyasətindən, bu siyasətin hazırda Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən, vətənpərvərlik nümunəsi göstərən Azərbaycan gəncliyindən söz açaraq əldə olunmuş nailiyyətlərin əhəmiyyətini vurğulayıb.

Konfransda çıxış edən YAP Şuşa şəhər təşkilatının sədri Təvəkkül Əliyev, Milli Məclisin deputatı Elman Məmmədov, YAP Şuşa rayon təşkilatı Qadınlar Şurasının sədri Vüsalə Fətəliyeva, Şuşa Humanitar Kollec üzrə 20 saylı ərazi ilk partiya təşkilatının sədri Könül Hüseynova və başqaları ölkəmizdə həyata keçirilən gənclər siyasətinin uğurlarından dən danışıblar.

Sonra YAP Şuşa şəhər təşkilatının Gənclər Birliyinin şurasına 9, İdarə Heyətinə isə 5 nəfərdən ibarət üzv seçilib. Ülvi Heydərov təşkilatın Gənclər Birliyinin sədri, Əmirxan Qarayev və Elmir Rzayev isə sədrin müavinləri seçiliblər.

Daha sonra Yeni Azərbaycan Partiyası Şuşa şəhər təşkilatının Gənclər Birliyinin V konfransının nümayəndələri adından Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevə müraciəti qəbul olunub. Sonda YAP sıralarına qəbul olunmuş bir qrup gəncə üzvlük vəsiqəsi təqdim edilib.

# YAP Salyan rayon təşkilatı Gənclər Birliyinin V konfransı keçirilib

Aprelin 13-də Yeni Azərbaycan Partiyası Salyan rayon təşkilatı Gənclər Birliyinin V konfransı keçirilib. Konfrans iştirakçıları əvvəlcə Heydər Əliyev xatirə parkında Ulu Öndərin abidəsi önünə gül dəstələri düzərək, dahi şəxsiyyətin xatirəsini ehtiramla yad ediblər.

Konfransda YAP Salyan rayon təşkilatı Gənclər Birliyi sədri hesabat məruzəsi ilə çıxış edib.






Konfransda çıxış edənlərdən Milli Məclisin deputatı Şahin İsmayılov, "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev, YAP GB-nın sədr müavini Ramin Məmmədov və başqaları Azərbaycan dövlətinin gənclərə göstərdiyi yüksək diqqət və qayğıdan, Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən, ölkəmizin sosial-iqtisadi, ictimai-mədəni, eləcə də idman həyatında gənclərin uğurlarından danışıblar.

Konfransda daha sonra təşkilati məsələlərə baxılıb. Fazil Sabir oğlu Məhərrəmov YAP Salyan rayon təşkilatı Gənclər Birliyinin sədri seçilib. Konfransda YAP Salyan rayon təşkilatı Gənclər Birliyinin yeni tərkibdə şurası və idarə heyəti seçilib. Konfansda Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin konfransına nümayəndələr seçilib.

# YAP Qax rayon təşkilatı Gənclər Birliyinin konfransı keçirilib

Yeni Azərbaycan Partiyası Qax rayon təşkilatı Gənclər Birliyinin konfransı keçirilib. SİA-nın verdiyi məlumata görə, konfrans iştirakçıları əvvəlcə Qax şəhərində Ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edib, abidənin önünə gül-çiçək dəstələri düzüblər.

Konfransda əvvəlcə hesabat məruzəsi dinlənilmiş, ötən müddət ərzində görülən işlər barədə geniş məlumat verilmişdir. Məruzəçi gənclərin fəallığından, rayonun ictimai-siyasi həyatında yaxından iştirak etməklərindən, dövlətə, dövlətçiliyimizə, Prezidentimizə həmişə sədaqətli olduqlarından bəhs edib.

Daha sonra Milli Məclisin deputatlarından Hikmət Babaoğlu, Azər Kərimli, Qax rayon İcra Hakimiyyətinin başçısı və başqaları çıxış edərək ölkə rəhbərliyinin gənclərə göstərilən diqqət və qayğısından danışıblar. Konfransda YAP Qax rayon təşkilatı Gənclər Birliyi şurasının yeni tərkibi seçilib, Elvin Həsilov YAP Qax rayon təşkilatı Gənclər Birliyinin sədri seçilib. Tədbirdə YAP Gənclər Birliyinin konfransına nümayəndələr seçilib.

# Tahir Rzayev: Azərbaycan dünyanın siyasi və iqtisadi məkanında mövqeyini gündən-günə gücləndirir



"Prezident İlham Əliyevin uzaqgörən siyasəti, prinsipiallığı və beynəlxalq aləmdə böyük nüfuzu sayəsində Azərbaycan dünyanın siyasi və iqtisadi məkanında mövqeyini gündən-günə gücləndirir". Bu fikirləri Milli Məclisin deputatı Tahir Rzayev deyib.

T.Rzayev bildirib ki, Azərbaycanın təşəbbüskarı olduğu transmilli layihələr hazırda Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. Onun sözlərinə görə, Bakı-Tbilisi-Ceyhan neft kəməri vasitəsilə Xəzər dənizinin enerji resursları region ölkələrinə və Avropaya nəql edilir.

"Son illərdə reallaşdırılan ən mühüm layihələrdən olan, Azərbaycanın təşəbbüsü və liderliyi ilə həyata keçirilən, Prezident İlham Əliyevin XXI əsrin layihəsi adlandırdığı Cənub Qaz Dəhlizi layihəsi isə enerji əməkdaşlığımızı genişləndirərək Azərbaycanı Avropanın böyük təbii qaz təchizatçılarından birinə çevirəcək. Digər nəhəng layihə olan və "Dəmir İpək yolu" adlandırılan Bakı-Tbilisi-Qars dəmir yolu quru xətlə birbaşa Avropaya çıxış imkanı yaradır. 2018-ci ildə may və iyul aylarında Cənub Qaz Dəhlizi və TANAP layihələrinin təntənəli açılış mərasimləri keçirildi. Türkiyə ilə dostluğun, qardaşlığın daha bir nümunəsi kimi, ötən ilin payızında "STAR" neft emalı zavodunun tarixi açılış mərasimi keçirildi ki, bunlar da nəticə etibarilə Azərbaycanın regionun və bütövlükdə dünyanın enerji təhlükəsizliyinin təminatında rolunu daha da artırıb"-deyə, T.Rzayev vurğulayıb.

# Fəzail İbrahimli: Qazanılan uğurların əsasında ictimai-siyasi sabitlik dayanır



"Qazanılan uğurların əsasında ictimai-siyasi sabitlik dayanır. Çünki sabitlik olmayan yerdə inkişafdan söhbət gedə bilməz". Bu fikirləri Milli Məclisin deputatı Fəzail İbrahimli deyib.

F.İbrahimli bildirib ki, Azərbaycanda 15 ildən çox müddətdə həyata keçirilən sosial, iqtisadi islahatların son 1 il müddətində daha fərqli şəkildə həyata keçirilməsi vətəndaşlarımızın sosial müdafiəsini daha da yaxşılaşdırıb.

"Son bir il ərzində Azərbaycan vətəndaşları ölkə başçısının xüsusi qayğısı ilə əhatə olunub. Bir il müddətində demək olar ki, Azərbaycan dövlətinə xalqın inamının gücləndirilməsi yönümdə mühüm addımlar atılıb. Amma bütövlükdə Azərbaycanda dünyaya nümunə olan sabitliyin qorunub saxlanması ilin ən böyük, vacib hadisəsidir. Bu sabitlik ölkəmizin inkişafında kifayət qədər ciddi amildir"-deyə, F.İbrahimli qeyd edib.

# Ermənistanda etiraz aksiyası zamanı silahlı qarşıdurma olub



Ermənistanın Armavir vilayətinin Zartonk kəndinin sakinləri sosial problemlər səbəbindən etiraz aksiyası keçiriblər. AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, narazı kütlə icra başçısının istefası tələbi ilə kənddən keçən Yerevan-Gümrü dəmir yolunu bağlayıblar. Aksiya iştirakçıları bildiriblər ki, bir il bundan əvvəl inqilab yolu ilə hakimiyyətə gələn Nikol Paşinyan Ermənistanda bütün problemlərin həll ediləcəyəni demişdi. Lakin bundan əvvəlki dövrlərdə olduğu kimi, bu gün də insanlar sosial problemlərdən əziyyət çəkirlər. Ötən bir il müddətində Paşinyan və komandası problemlərin həlli istiqamətində ciddi addımlar atmayıb. Aksiya zamanı kəndlilər arasında atışma baş verib. Bir sakin ov tüfəngindən atəş açaraq digər iki ermənini yaralayıb. Daha üç nəfər müxtəlif dərəcəli xəsarətlər alıb.




MƏTLƏB
Metlebsalahov@mail.ru

# Ərdoğan niyə İstanbulda “ilişdi?”

***Türkiyədəki son bələdiyyə seçkilərinin nəticələri elə bir şəkil alıb ki, istər dost olsun, istər düşmən, dünyanın diqqəti Mustafa Kamal Atatürkün vətənindədir. Bəs nə baş verib ki, Türkiyə dünyanın “radarına düşüb”? Məsələ burasındadır ki, Rəcəb Tayyib Ərdoğanın rəhbərlik etdiyi partiya, Türkiyə seçicisi tərəfindən, sözün siyasi mənasında, seçkilərdə “nokauta” salınıb desəm, qətiyyən səhvə yol verməyərəm. 2002-ci ildən hakimiyyətdə olan, bütün seçkilərdə rekord qələbələrdən xumarlanan AKP, bu dəfə seçki rinqində “nokauta” tuş gəldi. Türkiyə, sözün əsl mənasında, tarix üçün əsl demokratiya imtahanı verir. “Axırıncı aşırım” kimi isə hədəfdə İstanbuldur!***

Seçki 15 gündən çoxdur ki, bitib. Amma İstanbuldakı nəticələr, xüsusilə, hakim AKP-nin namizədi və keçmiş parlament sədri olan Binəli Yıldırımın, ana müxalifət partiyası olan CHP-nin namizədi İkram İmamoğluna böyük fərqlə uduzması, AKP namizədinin, azı, 14-15 min səs fərqi ilə geri düşməsi, kritik proseslərə səbəb olub. Hakim AKP, elektrik cərəyanı vurmuş kimi bir şok yaşayır indilərdə.

Hakim partiya Ankara, İzmir, Antalya və digər mühüm şəhərlərdəki bələdiyyə başçısı postlarını müxalifətə uduzmasından sonra, təkcə şəhər olaraq deyil, həm də siyasi mənada, Türkiyənin döyünən ürəyi sayılan İstanbulun da CHP-yə keçməsini hec cürə qəbul etmək istəmir. Artıq AKP-nin etirazlarına əsasən, bir neçə rayonda səslər yenidən hesablanır. Amma bu da bir fayda verməyəndə, Ərdoğanın partiyası, ümumiyyətlə, İstanbuldakı seçkilərin yenidən təkrar olunmasını tələb edir. Özü də AKP-nin müttəfiqi olan MHP lideri Dövlət Baxçalı da bu fikirdədir. Artıq İstanbulun Maltəpə bölgəsində sayılan səslər ləğv edilib. Orada səslər yenidən bir daha sayılacaq.

Bəs seçkilər niyə bu şəkil aldı? Nədən Ərdoğanın partiyası Türkiyənin əksər bölgələrində seçkidə qələbə qazandığı halda, İstanbul, Ankara, Antalya, İzmir və başqa mühüm şəhərlərdə məğlubiyyət acısı yaşadı?

Bu məğlubiyyətin bir neçə kritik səbəbi var ki, bunlar seçkilərdə hakim partiyanın səs itirməsi üçün mühüm faktora çevrildi. İlk öncə, qeyd edək ki, bölgələrdən fərqli olaraq, böyük şəhərlərdəki seçicilər olduqca tələbkar və diqqətli elektoratdır. Hökumətin hər addımı sonda seçki qutusunda öz qiymətini alır. Böyük şəhərdəki seçici elektoratının, xüsusilə istanbulluların AKP-yə qarşı olan bu etimadsızlığının əsas səbəbi, Suriyadan qaçqın düşən minlərlə miqrantın bu şəhərdə yerləşdirilməsi, yerli əhalinin normal oturaq yaşayışının pozulması, gəlmə suriyalıların şəhər həyatı və şəhər mədəniyyətindən yoxsul olması, müxtəlif küçə cinayətləri törətmələri, küçə və meydanlarda barbar hərəkətlərə yol verməri, qız-qadın qisminə qarşı xuliqanlıqlar törətmələridir. Həmçinin, hökumətin onlara aylıq müavinət ayırması Ankara və İstanbulda yerli əhalinin ciddi sosial etirazlarına səbəb olub. İkinci fakt, AKP hökumətinin sanki daima hakimiyyət başında olacağı kimi davranış sərgiləməsi, neçə illərdir ki, din amilindən geninə-boyuna istifadə edərək, təbliğat qurmasıdır. Amma bu təbliğat da elə cansıxıcı hal aldı ki, çox vaxt verilən vədlər elə yerindəcə tarixə qovuşdu.

Düzdür, R.T.Ərdoğan Türkiyə üçün vacib simadır. Burası belədir. Məhz Ərdoğanın siyasi ağırlığı və personası rəsmi Ankaranın dünya siyasətindəki çəkisini gücləndirib, ikiüzlü Qərb siyasətçilərinin bu qardaş ölkəyə olan məcburi hörmət prinsipi işə düşüb. Hətta rəsmi Ankara Ağ Evlə üz-üzə gələcək qədər ağırlığını göstərməyə başlayıb. Burası belədir. Amma Türkiyə üçün, sadəcə, bir “rəis” simvolu artıq cansıxıcı hal alıb. İşin bu tərəfi də göz yumub keçiləcək fakt deyil. Türkiyə siyasəti üçün yeni kritik mərhələ başlayır. Sadəcə, onu deyək ki, Allah türkü qorusun!

# YAP Ucar rayon təşkilatının gənclər birliyinin hesabat-seçki konfransı keçirilib

***Yeni Azərbaycan Partiyası Ucar rayon təşkilatının gənclər birliyinin V hesabat-seçki konfransı keçirilib. Ucar rayonundakı Heydər Əliyev Mərkəzində keçirilən konfransda 69 ərazi ilk partiya təşkilatından 200 nümayəndə iştirak edib. İştirakçılar əvvəlcə Heydər Əliyev Xatirə Parkında Ulu Öndərin abidəsi önünə gül dəstələri düzərək, dahi şəxsiyyətin xatirəsini dərin ehtiramla yad ediblər.***




YAP Ucar rayon təşkilatının sədri Şəhla Abdullayeva tədbirdə çıxış edərək bildirib ki, təşkilat sıralarında 4010 üzvü birləşdirir: “Onların 1120 nəfəri gəncdir. Gənclərin 781-i isə qadındır. Təşkilatın gənclər birliyinin üzvlərindən 567-si ali, 289-u orta ixtisas, 264 nəfəri isə orta təhsillidir. Onlardan 563-ü təhsil, 101-i mədəniyyət, 123-ü səhiyyə sahələrində, 120-si idarəetmə orqanlarında, 126 nəfəri isə digər idarə və müəssisələrdə çalışır”.



Tədbirdə YAP Ucar rayon təşkilatının gənclər birliyinin sədri Ceyhun Qəhrəmanov hesabat məruzəsi ilə çıxış edib.

Məruzə ətrafında çıxışlarda Ümummilli Liderimiz Heydər Əliyevin Vətən qarşısındakı xidmətlərindən danışılıb. Qeyd olunub ki, müasir tariximizin böyük bir mərhələsi müdrik dövlət xadiminin adı ilə bağlıdır. Azərbaycan dövlətçiliyinin müasir tarixinə öz adını əbədi həkk edən bu nadir şəxsiyyətin ölkəmizə rəhbərlik etdiyi illər intibah, milli tərəqqi, oyanış, müstəqil dövlət quruculuğu dövrü kimi yazılıb. Ulu Öndər Heydər Əliyevin siyasi fəaliyyətinin ən böyük zirvəsi, quruculuğuna, bilavasitə rəhbərlik etdiyi müasir müstəqil Azərbaycandır. Hazırda ölkəmizin dünya birliyində söz sahibinə çevrilməsinin əsasını, məhz Ulu Öndər Heydər Əliyev qoyub. İftixarla vurğulanıb ki, bu gün Azərbaycan Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə işıqlı gələcəyə doğru iri addımlarla irəliləyir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvləri - ekologiya və təbii sərvətlər nazirinin müavini Firdovsi Əliyev, YAP Gənclər Birliyinin sədri Seymur Orucov çıxışlarında ölkəmizdə gənclərə göstərilən yüksək diqqət və qayğıdan, Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu dövlət-gənclər siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilməsindən, ölkəmizin sosial-iqtisadi, ictimai-mədəni, eləcə də, idman həyatında gənclərin uğurlarından danışıblar.

Çıxışlardan sonra təşkilati məsələlərə baxılıb. Konfransda YAP Ucar rayon təşkilatının gənclər birliyi şurasına 19, idarə heyətinə isə 11 nəfər seçilib. Ülvi Qəhrəmanzadə yenidən YAP Ucar rayon təşkilatının gənclər birliyinin sədri, Vüqar Səlimov və Yusif Məmmədov sədrin müavinləri seçiliblər. Bundan başqa, YAP Gənclər Birliyinin ümumrespublika konfransında iştirak edəcək iki nümayəndə də müəyyənləşdirilib.

***Rövşən RƏSULOV***

# Qusarda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş ağacəkmə kampaniyası keçirilib



***Qusar rayonunda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş ağacəkmə kampaniyasına start verilib. Azərbaycanda ekologiyanın qorunması ilə bağlı Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu ənənənin davamı olaraq, bu gün ölkəmizdə ətraf mühitin sağlamlaşdırılması, o cümlədən, mövcud yaşıllıq sahələrinin artırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.***

Ağacəkmə kampaniyasına qatılmış YAP Qusar rayon təşkilatının fəalları tərəfindən gün ərzində 800-dən artıq dekorativ ağac əkilib.

Ağacəkmə kampaniyası, mütəmadi olaraq, rayon mərkəzində və bütün yaşayış məntəqələrində davam etdiriləcəkdir. Ulu Öndərin ad günü ilə bağlı həyata keçirilən abadlıq-yaşıllaşdırma işləri müdrik rəhbərin təbiətə, gözəlliyə olan sevgisi, Azərbaycan təbiətinin qorunması ilə bağlı tövsiyələrinin həyata keçirilməsinə bir töhfə olacaq.

***NƏZAKƏT***



# Azərbaycan geosiyasi dəyişikliklərə imza atır

***Qlobal layihələr, beynəlxalq əhəmiyyətli tədbirlər üçün Bakı artıq ənənəvi bir məkana çevrilib. Azərbaycan artıq, sözün əsl mənasında, diqqət mərkəzindədir. Bakıda keçirilən “Cənub Qaz Dəhlizi” Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısı, ildən-ilə bu layihəyə olan marağın artması, iştirakçı dövlətlərin sayının çoxalması həm Azərbaycana olan marağı, həm də yüksək səviyyəli əməkdaşlığa meyil göstərildiyini təsdiq edir.***

Qlobal layihələrin həyata keçirilməsi regionda movcud olan problemlərin həllinə əsaslı zəmin yaradır. Daha dəqiq desək, ölkəmizdə həyata keçirilən qlobal əhəmiyyətli layihələr bir çox məsələlərin, ələlxüsus, münaqişə məsələsinin həllinə də yol açır. Eyni zamanda, məsələlərin həllini sürətləndirir. Təbii ki, ölkəmizin nüfuzunun artması, söz sahibinə çevrilməsi mövqeyinin, gücünün möhkəmlənməsi deməkdir və bu da, sözsüz ki, mütləq şəkildə qələbə əzmini artırır.






*Ölkəmiz tərəfindən reallaşdırılan qlobal layihələr, eləcə də, “Cənub Qaz Dəhlizi” layihəsi geosiyasi mənzərəni Azərbaycanın xeyrinə dəyişib*



## Amerika da, Avropa da Azərbaycanın qoca qitənin enerji təhlükəsizliyinin təmin olunmasındakı rolunu yüksək qiymətləndirir

“Cənub Qaz Dəhlizi” layihəsinin perspektivləri, onun Azərbaycana gətirəcəyi dividendlər saysız hesabsızdır. Bakıda “Cənub Qaz Dəhlizi” Məşrəvət Şurasının toplantısı regional müstəvidə ölkəmizin siyasi mövqeyinin daha da güclənməsi deməkdir. Bu toplantı, xüsusilə, Avropa ilə sıx enerji əməkdaşlığının göstəricisidir. Sirr deyil ki, bu enerji əməkdaşlığı, eyni zamanda, özündə siyasi əməkdaşlığı da ehtiva edir. Xüsusilə, Qərbin Azərbaycana siyasi-iqtisadi dəstəyinin inkişafına əsaslı şəkildə zəmin yaradır. Birləşmiş Ştatların öz nümayəndəsini bu toplantıya göndərməsi heç də təsadüfi deyil. Bu, ondan xəbər verir ki, Amerika da Azərbaycanın enerji siyasətinə yaxından dəstək verir.

Bakıda “Cənub Qaz Dəhlizi” Məşrəvət Şurasının toplantısı təsdiq edir ki, Amerika da, Avropa da Azərbaycanın qoca qitənin enerji təhlükəsizliyinin təmin olunmasındakı rolunu yüksək qiymətləndirir. Artıq etiraf olunur ki, Azərbaycan Avropanın enerji diversifikasiyasında mühüm rol oynayan ölkədir. “Cənub Qaz Dəhlizi” və onun seqmentləri olan TANAP və TAP layihələri 2020-ci ildən başlayaraq Avropaya ildə 16 mlr. kub. qaz ixrac edəcək ki, buna marağı təkzib etmək də mümkün deyil. İşlərin gedişi də təsdiq edir ki, bu istiqamətdə uğurlar bir-birini əvəz etməkdədir və lahiyələr uğurla reallaşdırılır. Məsələn, hazırda “Cənub Qaz Dəhlizi” boru kəmərinin çəkilişi başa çatıb və Türkiyəyə artıq qaz irac edilir. Bir sözlə, bütün dünya ictimaiyyəti qlobal və regional layihələrin ölkəmiz tərəfindən uğurla reallaşdırılmasının əyani şahididir və bundan sonra da reallaşdırılacağına zərrə qədər şübhə yeri yoxdur.

## Bakı Qərb üçün Mərkəzi Asiya regionuna giriş qapısıdır və Avropa, eləcə də, Qərb tərəfindən Azərbaycana olan dəstək başadüşüləndir

Nəzərə almaq lazımdır ki, Rusiya kimi fövqəl bir dövlət özü də Avropanın əsas qaz ixracatçısıdır və hazırda Türkmənistan və Qazaxısatanın “Cənub Qaz Dəhlizi”nə qoşulmasına əngəl olması da, bu prizmada başadüşüləndir. Qərbin Xəzər regionunda enerji siyasətinin qarşısının alınması üçün rəsmi Moskvanın siyasət yürütməsi də göz qabağındadır. Doğrudur, hazırda Rusiyanın Türkiyə vasitəsi ilə “Türk axını” və Almaniya ilə birgə “Şimal axını-2” qaz kəmərləri qaz ixracını reallaşdırır, lakin bu, eyni zamanda, həmin ölkələrə təzyiq rıçağıdır. Məhz bu səbəbdən, Avropanın enerji şaxələndirilməsi siyasətini başa düşmək çətin deyil və göründüyü kimi, Avropa Rusiya qazından imtina etməyə çalışır. Daha doğrusu, hazırlaşır. Elə bu rakursda da Avropa və Qərb tərəfindən Azərbaycana olan dəstək başadüşüləndir. Həm də etiraf etmək lazımdır ki, Bakı Qərb üçün Mərkəzi Asiya regionuna giriş qapısıdır.

Qərbin və Avropanın maraq göstərməsi, təsdiq edir ki, Bakıda keçirilən Məşvərət Şurasının siyasi-iqtisadi əhəmiyyəti olduqca böyükdür. Bu maraq təkcə Qərb, Avropa deyil, Mərkəzi Asiyanı da əhatə edir. Bakını Mərkəzi Asiya regionuna Qərbin giriş qapısı hesab edən Rusiya üçün Azərbaycanın qaz tədarükünü zəiflətmək siyasətini, TAP layihəsinə İtaliyada törədilən əngəllərin fonunda başa düşmək çətin deyil. Məqsəd gələcək perspektivdə Türkmən qazının və halhazırda Azərbaycan qazının Avropaya nəqlinə və inkişafına əngəl olmaqdan ibarətdir.

## Qoca qitənin enerji təminatında ölkəmizə yaradılan şərait Azərbaycanın qələbəsidir və bu qələbə Avropaya inteqrasiya prosesini sürətləndirəcək

Qərb və Avropanın Rusiya qazından tam intina etmək planlarının fonunda, göründüyü kimi, Avropaya qaz ixracı, xüsusilə. enerji bazarı uğrunda rəqabət getdikcə, yeni mərhələyə qədəm qoyur. Daha dəqiq desək, artıq görünür ki, ölkəmiz bu rəqabətdə üstün mövqeyə malikdir. Çünki Qərb də, Avropa da təbii ki, Rusiyaya deyil, Azərbaycana dəstək verməkdə maraqlıdır. Bu dəstək isə, öz növbəsində, o deməkdir ki, qoca qitənin enerji təminatında, məhz ölkəmizə şərait yaradılacaq və cəsarətlə demək olar ki, Azərbaycan bu rəqabətdə qalib hesab olunur. Bu yanaşma, bu qələbə, sözsüz ki, Prezident İlham Əliyevin apardığı məqsədyönlü, düzgün siyasətin məntiqi nəticəsi, bu siyasətin uğuru və qələbəsidir. Bu qələbə isə, heç şübhəsiz ki, Azərbaycanın Avropaya inteqrasiya prosesini sürətəndirəcək.

Eyni zamanda, nəzərə almaq lazımdır ki, ölkəmiz bu qələbəyə, bu uğura, məhz ölkə başçımızın rəhbərliyi ilə həyata keçirilən, reallaşdırılan qlobal layihələr sayəsində nail olub. Bu gün “Cənub Qaz Dəhlizi” belə layihələrdən biridir və ölkəmizin uğurlarını, qələbələrini, gələcək perspektivlərini şərtləndirən layihələrdəndir. Etiraf etmək lazımdır ki, ölkəmiz tərəfindən reallaşdırılan qlobal layihələr, eləcə də, bu layihə geosiyasi mənzərəni Azərbaycanın xeyrinə dəyişib. Bu gün ölkəmiz fövqəldövlətlərin də, bütün dünya dövlətlərinin də diqqət və maraq dairəsindədir. Məhz bu da Azərbaycanın nüfuzu və söz sahibi olması deməkdir. Bir sözlə, qlobal lahihələr, məhz “Cənub Qaz Dəhlizi” layihəsi sayəsində Azərbaycan geosiyasi dəyişikliklərə imza atır.

***İnam HACIYEV***

# Azərbaycan: ümumbəşəri humanist dəyərlərin bərqərar olduğu ölkə

## *Prezident İlham Əliyev tərəfindən imzalanan Əfv Sərəncamı və Amnistiya Aktları bu reallığın bariz nümunəsidir*

***Böyük qürur hissi və fəxrlə qeyd etmək lazımdır ki, Azərbaycan dövlətinin humanist siyasəti bütün dünyada yüksək dəyərləndirilir. Ölkə başçısının 16 illik Prezidentlik fəaliyyəti dövründə, humanist siyasəti istər dünya dövlətləri, istərsə də xalqımız tərəfindən böyük razılıqla qarşılanıb. Çünki Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı Əfv Sərəncamı və Amnistiya Aktları Prezidentimizin humanist siyasətinin, Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olmuş hərbi qulluqçuların ailələrinə, vərəsələrinə göstərdiyi yüksək diqqət və qayğısının bariz nümunəsidir.***



Beynəlxalq təşkilatlar Azərbaycanda əsas insan hüquq və azadlıqlarının müdafiəsi istiqamətində uğurlu işlər aparıldığını qeyd edirlər. Belə ki, Avropa İttifaqının xarici siyasət üzrə ali nümayəndəsi Ketrin Eşton və Avropa Qonşuluq Siyasəti və Genişlənmə üzrə komissar Ştefan Fülenin birgə bəyanatında Prezident İlham Əliyevin Prezidentlik fəaliyyəti dövründə Əfv və Amnistiya Sərəncamını müsbət addım kimi dəyərləndiriblər. Bəyanatda Avropa İttifaqının Azərbaycanla əlaqələrə verdiyi önəm xüsusi vurğulanıb və Avropa İttifaqı-Azərbaycan münasibətlərinin hər iki tərəfin xeyrinə əhəmiyyətli potensialı olduğu qeyd edilib: “Biz Azərbaycanın sabit, təhlükəsiz və firavan gələcəyə malik ölkə olması ilə bağlı istəklərini bölüşür və Avropa Şurasının hazırkı sədri kimi, Azərbaycanın beynəlxalq öhdəliklərinə uyğun olaraq, açıq və əhatəli milli dialoqun ən yaxşı yol olduğuna əminliyimizi bildiririk”.

Polşa Xarici İşlər Nazirliyi də Prezident İlham Əliyevin bu humanist siyasətini alqışlayaraq, bildirir ki, Azərbaycan Prezidentinin insan azadlığına yüksək dəyər verməsi Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğu istiqamətində atılmış müsbət addımdır.

Ölkəmizin sürətli inkişaf yoluna qədəm qoyması və beynəlxalq aləmdə reytinqinin getdikcə yüksəlməsini gözü götürməyən, insan hüquq və azadlıqlarının müdafiəsi istiqamətində əhəmiyyətli tədbirlərin həyata keçirilməsindən qısqanclıq hissi keçirən, erməni lobbisi tərəfindən maliyyələşdirilən və onların diktəsi ilə hərəkət edən “Human Rights Watch”, “Freedom House”, “Amnesty İnternational”, “Sərhədsiz Reportyorlar” və digər ermənipərəst təşkilatların yalan və qərəzli hesabatlarına, artıq inanan yoxdur. Azərbaycan Prezidentinin sonuncu Əfv Sərəncamından sonra, mötəbər beynəlxalq təşkilatların və bir sıra ölkələrin rəsmi bəyanatları qərəzli qeyri-hökumət təşkilatlarına tutarlı cavab oldu.

### Dövlət başçısının humanizmin və insanseveriyin əsas prinsip olması rəqəmlər və faktlarla

Prezident İlham Əliyevin fəaliyyətində humanizmin və insanseveriyin əsas prinsip olmasını rəqəmlər və faktlar da təsdiqləyir. Bu gün imzalanan Sərəncam 2003-cü ildən bəri dövlət başçımızın imzaladığı sayca 33-cü əfv sənədidir. Ümumilikdə, 16 il ərzində, imzalanan fərman və sərəncamlarla 4.500-dən çox şəxs azadlığa buraxılmaqla, 5 minə yaxın məhkum əfv edilib. Təsadüfi deyil ki, əfv sənədləri, adətən, bayramlar ərəfəsində imzalanır. Bununla, dövlət başçısı yüzlərlə insana dünyada ən qiymətli neməti - azadlığı hədiyyə edir. Bir faktı qeyd etmək istərdik. Belə ki, ötən il də mayın 24-də, Cümhuriyyətin 100 illiyi münasibətilə 634 şəxs əfv olundu. Göstərilən rəqəmlər, onu bir daha təsdiqləyir ki, imzalanan Əfv Fərmanı ölkənin siyasi-ictimai həyatında mühüm hadisə kimi qiymətləndirilir. Çünki bu humanizm və insanpərvərlik siyasətinin kökləri Ulu Öndər Heydər Əliyevin atdığı addımlardan qaynaqlanır. Belə ki, Ulu Öndər ölkə rəhbərliyinə qayıdandan sonra, 1995-ci ildə əfv və amnistiya praktikasını bərpa etdi və hakimiyyətdə olduğu dövrdə, ümumilikdə, 65 Fərman və Sərəncamla 8 minə yaxın şəxs əfv olundu.

1995-ci ildən başlayaraq, bu günə qədər qəbul edilmiş 11 Amnistiya Aktı, ümumilikdə, 117.000-ə yaxın şəxsi əhatə edib ki, onlardan da 30.000-i azadlığa buraxılıb. Qalanların cəzaları müxtəlif formalarda yüngülləşdirilib. Bu Amnistiya Aktlarından sonuncu 4-ü - yəni 2007, 2009, 2013 və 2016-cı illərdə baş tutan amnistiyalar Heydər Əliyev Fondunun Prezidenti, Mehriban xanım Əliyevanın təşəbbüsləri olub. 2016-cı ilin amnistiyası 10.000-dən çox məhkumu əhatə etmiş, 3.000-ə yaxın şəxs penitensiar müəssisələrdən buraxılıbdır.

Göstərilən bu faktlar, bir daha onu təsdiqləyir ki, humanizm Azərbaycan iqtidarı üçün prioritet dəyərlərdən biridir. Həm də, məhz bu səbəbdən, cəzaların yüngülləşdirilməsi, alternativ cəza növlərinin tətbiqi istiqamətində fəal iş aparılır. Çünki dövlətin məqsədi, əslə, vətəndaşını cəzalandırmaq deyil. Dövlətin məqsədi vətəndaşı islah etmək və qanunsuz əməllərdən uzaqlaşdırmaqdır. Çünki Azərbaycan Prezident beynəlxalq təşkilatların tələblərindən çox, Azərbaycan vətəndaşının mənafeyini daha üstün tutur. İmzaladığı Sərəncamı ilə ailələrə ikiqat sevinc bəxş edən dövlətimizin başçısının növbəti humanist addımı, bir daha göstərir ki, ölkəmizdə insan amilinə diqqət dövlət siyasətinin əsas parametrlərindəndir. “Biz qanunun aliliyinin təmin olunduğu, yüksək səviyyədə şəffaflıq olan, hər bir insanın sülh və əmin-amanlıq şəraitində yaşadığı və bütün azadlıqlardan istifadə etdiyi cəmiyyət qururuq” deyən dövlətimizin başçısı İlham Əliyev, eyni zamanda, diqqətə çatdırır ki, iqtisadi artım, cəmiyyətin demokratikləşməsi siyasətimizin əsas elementləridir və biri digərsiz mümkün ola bilməz: “İqtisadi cəhətdən güclü ola bilərsən, amma demokratiya yoxdursa, şəffaflıq yoxdursa, insan hüquqları qorunmursa, uğur qazana bilməzsən”.

Bəli, bu gün Azərbaycanda mövcud olan dinamik inkişaf insan hüquqlarının müdafiəsi sahəsində aparılan ardıcıl islahatların davam etdirilməsini şərtləndirir. Ölkəmizin normativ-hüquqi aktlarının insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğunun təmin edilməsi, beynəlxalq təşkilatlarla yeni əməkdaşlıq strategiyasının hazırlanması və həyata keçirilməsi, dövlət orqanlarının fəaliyyətinin insan hüquqlarının təminatı baxımından təkmilləşdirilməsi, hüquqi maarifləndirmə işinin genişləndirilməsi, dövlətlə vətəndaş cəmiyyəti arasında qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi kimi vəzifələr müəyyən edilir.

**RƏFİQƏ KAMALQIZI**

## “Gürcüstan” qəzetində “Azərbaycan: uğurlu islahatlar ölkəsi” adlı məqalə dərc olunub



Gürcüstanda geniş oxucu auditoriyasına malik “Gürcüstan” qəzetində AZƏRTAC-ın xüsusi müxbiri Xətayi Əzizovun “Azərbaycan: uğurlu islahatlar ölkəsi” adlı məqaləsi dərc olunub. Məqalədə 2018-ci ilin aprelində keçirilən prezident seçkilərində İlham Əliyevin parlaq qələbəsindən sonra ölkəmizdə aparılan uğurlu siyasətə nəzər salınır. Prezident İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan islahatların insanların həyat şəraitinin, sosial rifah halının yaxşılaşmasına xidmət etdiyi vurğulanır. Qeyd olunur ki, Prezident İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində ölkə əhalisinin sosial problemləri öz həllini tapıb.

## Naxçıvanda məşğul əhalinin 83 faizə yaxını özəl sektorda çalışır

Bu gün Naxçıvan Muxtar Respublikasında məşğul əhalinin 83 faizə yaxını özəl sektorda çalışır. AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, muxtar respublikada yeni iş yerlərinin yaradılması daim diqqət mərkəzində olub, 2000-ci ildən ötən müddət ərzində sahibkarların maliyyə resurslarına əlverişli şərtlərlə çıxışının təmin edilməsi məqsədilə muxtar respublikanın Sahibkarlığın İnkişafı Fondu tərəfindən 1271 layihənin maliyyələşdirilməsinə güzəştli şərtlərlə 142 milyon 313 min manatdan çox güzəştli kreditlər ayrılıb. Bu, sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə və muxtar respublikanın xarici ticarət əməliyyatlarının həcminin artmasına öz töhfəsini verib. Hazırda muxtar respublikada istehsal olunan yeyinti, tikinti, mebel və yüngül sənaye məhsulları 12 ölkəyə ixrac edilir.

## “Paşinyan qərəzli toxumlar səpməyə çalışır”



“Ümumiyyətlə Ermənistan baş naziri Nikol Paşinyan proqnoza çətin yatan bir adamdır”. Bunu SİA-ya açıqlamasında politoloq Qabil Hüseynli deyib. Politoloqun sözlərinə görə, Paşinyan sülhdən danışır amma fürsət düşən kimi Azərbaycana qarşı qərəzli toxumlar səpməyə çalışır: “Onun bu yaxınlarda Avropa Şurası Parlament Assambleyasındakı (AŞPA) sərsəm çıxışı da bu qəbildəndir. Bununla belə bizim AŞPA-da olan deputatlarımız var və onlar Paşinyanın layiqli cavabını verməlidirlər. Təcavüzkar dövlət əgər təcavüzə məruz qalmış ölkəni tənqid atəşinə tutursa bizimkilər də gərək onun dərisini soysunlar. Həmçinin AŞPA-nın siyasi rəhbərliyinə də müraciət etməlidirlər ki, belə bir adam pozucu işlərlə məşğuldur. Düşünürəm ki, AŞPA-da Paşinyana qarşı söz deyə biləcək qüvvələrimiz var və onlar hərəkətə keçməlidirlər. Onlar heç cür dünya ictimaiyyətinin fikirlərini də çaşdıra bilməzlər. Çünki Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BMT-nin 4 qətnaməsi vardır. Bununla belə ATƏT-in Minsk Qrupu münaqişə ilə bağlı danışıqlar aparır və s. Sadəcə olaraq onun həlli yolları barədə fərqli fikirlər səsləndirilir”.

## Xalq yazıçısı İsmayıl Şıxlının anadan olmasının 100 illiyi qeyd ediləcək



Aprelin 18-də Abdulla Şaiqin mənzil muzeyində Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq yazıçısı İsmayıl Şıxlının anadan olmasının 100 illiyinə həsr edilmiş tədbir keçiriləcək. Muzeydən AZƏRTAC-a bildirilib ki, tədbir Prezident İlham Əliyevin görkəmli ədibin yubileyinin keçirilməsi ilə bağlı imzaladığı müvafiq Sərəncama uyğun olaraq Mədəniyyət Nazirliyinin hazırladığı tədbirlər planına əsasən təşkil olunacaq. Tədbirdə yazıçının həyat və yaradıcılığı ilə bağlı məruzələr dinləniləcək, videoçarx nümayiş olunacaq, şah əsəri olan “Dəli Kür” romanı əsasında hazırlanmış kiçik tamaşa təqdim ediləcək.

# 2030-cu ildə paytaxtımızda metro stansiyalarının sayı 76-ya çatacaq

***Yarım əsrdən artıqdır ki, Bakı metrosu fəaliyyət göstərir. Bu gün paytaxtda sərnişinlərin böyük əksəriyyətinin istifadə etdiyi nəqliyyat vasitəsi, məhz metrodur. Bakı şəhərində avtomobillərin yaratdığı tıxacların fonunda əhalinin rahat və sürətlə daşınmasında mühüm yer tutan Bakı Metropoliteni hazırda yüksək templə inkişaf edir. Son illər tikilib istifadəyə verilmiş və müasir üslubda bərpa edilmiş metro stansiyaları, mükəmməl arxitekturası ilə Bakının memarlıq ənənələrini daha da zənginləşdirir, əsl mədəniyyət abidəsi kimi şəhərə yaraşıq verməklə yanaşı, ilk növbədə, çoxmilyonlu paytaxt sakinlərinin rahat və təhlükəsiz gediş-gəlişini təmin edir.***



1967-ci il noyabrın 6-sında istifadəyə verilməklə, böyük inkişaf yolu keçən Bakı Metropoliteninin hazırda 25 stansiyası, 1 elektrik deposu və 36,6 kilometr uzunluğunda 3 xətti var. Bu gün Bakı Metropoliteni stansiyalarının yenidən qurulması, infrastrukturun müasir standartların tələbləri səviyyəsinə çatdırılması işləri planlı şəkildə davam etdirilir. Məlumdur ki, 2008-ci ildə "Nəsimi" stansiyası yeraltı sərnişin konveyerinə qoşuldu. Bir il sonra 2009-cu ildə "Azadlıq prospekti" stansiyası və "28 May" stansiyasının ikinci çıxışı istifadəyə verildi. 2011-ci ildə Bakının 7-ci mikrorayonunda növbəti, sayca 23-cü olan "Dərnəgül" stansiyası sərnişindaşıma prosesinə qoşuldu. Bununla da, şəhərin yeraltı yollarının uzunluğu 34,63 km-ə çatdı.

Kütləvi sərnişin daşınmasında şəhər əhalisi üçün böyük əhəmiyyət daşıyan metrostansiyaların sayı durmadan artmaqdadır. Metropolitenin müasir tələblər çərçivəsində yenidən qurulması, beynəlxalq standartlara uyğunlaşdırılması, sərnişinlərin sərbəst və təhlükəsiz hərəkətinin təmin edilməsi istiqamətində işlər görülməkdədir. Belə ki, "Elmlər Akademiyası" stansiyasının ikinci çıxışının açılışı, "Avtovağzal" stansiyasının sərnişinlərin istifadəsinə verilməsi görülən işlərin davamıdır.

Yeni stansiyaların tikintisi ilə yanaşı, şəhərimizdə olan stansiyalar təmir və bərpa olunur. 2008-ci ildə "İçərişəhər", 2011-ci ildə "Koroğlu", 2015-ci ildə "28 May" stansiyaları əsaslı təmir olunaraq, yeni görkəmdə sərnişinlərin istifadəsinə verilib.

Bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyev Bakı Metropoliteninin əsaslı şəkildə yenidən qurulan "Bakmil" stansiyasında yaradılan şəraitlə tanış olub. Qeyd edim ki, 2017-ci ilin avqustundan mərhələli şəkildə yenidənqurma işlərinə başlanılan stansiya 1970-ci ildə açılıb və 9 il "Nərimanov" elektrik deposunun platforması olub. 1979-cu ildən isə stansiya kimi fəaliyyətə başlayıb. Müasir səviyyədə yenidən qurulan stansiyanın əsas memarlıq görkəmi saxlanılaraq, infrastrukturu və fasadı tamamilə yenilənib. Giriş-çıxışı birbaşa ikinci mərtəbədən olan "Bakmil" Bakı Metropoliteninin yeganə yerüstü stansiyasıdır. Yenidənqurma zamanı stansiyanın fəaliyyətini dayandırmamaq məqsədilə, təmir-bərpa prosesi mərhələlərlə aparılıb. Stansiyada monolit dəmir-beton konstruksiyalı sərnişin platforması inşa edilib ki, bu da əvvəlkindən daha etibarlı, davamlı və uzunömürlüdür. Stansiyanın təmirdən sonra ən mühüm yeniliyi sərnişinləri birbaşa ikinci mərtəbədə - platforma səviyyəsində qəbul etməsidir ki, bunun sayəsində də birinci mərtəbə yalnız xidməti sahəyə çevrilib.

Bundan başqa, əhəmiyyətli yeniliklərdən biri də açıq hava şəraitində yerləşən stansiya yolunun çətirlə örtülməsidir. Platforma boyunca bütün yol sahəsini əhatə edən çətir sərnişinləri və qatarları yağışdan qorumaqla yanaşı, burada gecə vaxtlarında qatarların saxlanılmasına da imkan yaradır. Stansiyada bütün kommunikasiya xətləri təzələnib, yanğın təhlükəsizliyi ilə bağlı ən son texnologiyalara uyğun yeniliklər tətbiq edilib. Gözləmə zalında yeni asma tavan, müasir işıqlandırma və informasiya-məlumat sistemləri və turniketlər quraşdırılıb.

Onu da deyək ki, 2019-cu ildə Bakı Metropoliteninin daha bir stansiyası tam yenilənmiş görkəmi və infrastrukturu ilə sərnişinlərin istifadəsinə veriləcək. Belə ki, hazırda "Xətai" stansiyasının yenidən qurulması uğurla davam etdirilir.

Hazırda Bakı Metropolitenində, konseptual inkişaf proqramına uyğun olaraq, tikinti işləri davam etdirilir. 2030-cu ildə paytaxtımızın yeraltı yollarının ümumi uzunluğu 119,1 km, stansiyalarının sayı isə 76-ya çatacaq. Perspektiv inkişaf planına uyğun olaraq, yeni xətlərin tunel, stansiya və depolarının inşası ilə yanaşı, mövcud stansiyaların mərhələlərlə yenidən qurulması və müasir avadanlıqlarla təchiz olunması, dərin özüllü birçıxışlı stansiyaların ikinci çıxışlarının tikintisi nəzərdə tutulub.

Görülən işlər göstərir ki, dövlət başçısının rəhbərliyi ilə Bakı metrosu son illərdə sürətlə inkişaf edib. Bu inkişaf özünü istər yeni, müasir metro vaqonlarının alınmasında, istər yeni metro xətlərinin istifadəyə verilməsində, istərsə də yeni stansiyaların inşası, mövcudlarının isə müasir səviyyədə yenidən qurulmasında daha aydın göstərir.

*Zümrüd BAYRAMOVA*

# İtaliya mətbuatı 10 milyonuncu vətəndaşımızdan yazır

İtaliyanın "Notizie Geopolitiche" gündəlik xəbər portalında Roma Sapienza Universitetinin dosenti Daniel Pommierin "Azərbaycan. 10 milyonuncu vətəndaş dünyaya gəlib. Cənubi Qafqazda əhalinin artımı və siyasət" adlı məqaləsi yayılıb.




AZƏRTAC xəbər verir ki, məqalədə aprelin 6-da Azərbaycanda körpə qızın dünyaya gəlməsi ilə ölkə əhalisinin sayının 10 milyona çatdığı, sözügedən xəbərin medianın geniş diqqət mərkəzində olduğu, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın yeni doğulmuş körpənin ailəsi ilə görüşdüyü bildirilir. Dünyaya gələn körpənin valideynlərinin Azərbaycanın Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş ərazilərdən məcburi köçkün olduqları diqqətə çatdırılır.

Müəllif hər bir ölkədə əhalinin artımı məsələsinin xalqın mövcudluq hüququ və müstəqillik yolunu təsdiq etməsi ilə paralellik təşkil etdiyini vurğulayır. 1991-ci ildə dövlət müstəqilliyini bərpa edən vaxt Azərbaycanın 7 milyon əhalisi olduğu halda, bu sayın 2010-cu ildə 9, cari ilin 6 aprelində 10 milyona çatdığı bildirilir və demoqrafik artımın ölkənin ümumi inkişafının tərkib hissəsi olduğu qeyd edilir.

Yazıda Prezident İlham Əliyevin sözlərinə istinad edilərək Azərbaycanda son 15 il ərzində əhalinin 1,7 milyon nəfər artdığı, bunun ölkənin gücünü, qüdrətini artırdığı, eyni zamanda, ölkədə sosial-iqtisadi inkişafın getdiyini göstərdiyi və əhalinin artımının birbaşa sosial vəziyyətlə bağlı olduğu vurğulanır.

Müəllif, həmçinin qeyd edir ki, 1 milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkün düşməsinə səbəb olan Ermənistanla 25 ildən artıq münaqişənin mövcudluğuna baxmayaraq, Azərbaycanda sosial-iqtisadi və demoqrafik inkişaf davam edir. Məqalədə dünya əhalisinin vəziyyətinə dair BMT-nin 2019-cu il hesabatında demoqrafik məsələlərin Minilliyin Dayanıqlı İnkişaf Məqsədləri ilə əlaqələndirilməsinin təsadüfi olmadığı, BMT-nin hesabatında Azərbaycana dair bütün müvafiq statistik göstəricilərin müsbət olduğu, hazırda ölkəmizdə əhalinin demoqrafik meyarlarının iqtisadi və sosial inkişafla balans təşkil etdiyi və Azərbaycanda demoqrafik ekspertlərin "demoqrafik bonus" aldandırdığı insan inkişafının xoşbəxt bir dövrünün yaşandığı bildirilir.

# Azərbaycanda ilk dəfə tele-opera çəkilib




Görkəmli bəstəkar Fikrət Əmirovun "Sevil" operası əsasında tele-opera çəkilib. AZƏRTAC xəbər verir ki, layihənin ideya müəllifi "Mədəniyyət" kanalının direktoru Ramil Qasımovdur. Tamaşada rolları Xalq artisti Əkrəm Poladov, Əməkdar artistlər Afaq Abbasova, Ramil Qasımov, İnarə Babayeva, Səbinə Vahabzadə, Cahangir Qurbanov, Əli İbrahimov və Fəhmin Əhmədli ifa ediblər.

R.Qasımov sözügedən layihənin həyata keçirilməsini mədəni sahədə böyük addım olduğunu bildirib: "Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, qüdrətli ədib və böyük dramaturq Cəfər Cabbarlının 120 illik yubileyinin keçirilməsi haqqında ölkə başçısı Sərəncam imzalayıb. Bu məqsədlə düşündük ki, Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndəsi Fikrət Əmirov və Cəfər Cabbarlının "Sevil" operasını tele-opera şəklində çəkib xalqımıza təqdim edək. Bu opera, müxtəlif illərdə bizim sənətkarlarımız tərəfindən ifa olunub. Azərbaycan Televiziyası, "Mədəniyyət" kanalı, Mədəniyyət Nazirliyi, Akademik Opera və Balet Teatrının birgə layihəsi kimi reallaşan bu opera yüksək texnoloji avadanlıqla ilk olaraq lentə alınıb, HD formatla çəkilib. İfaçılara gəldikdə düşünürəm ki, tamaşanın dirijoru, Akademik Opera və Balet Teatrının baş dirijoru, Əməkdar artist Eyyub Quliyev öhdəsinə düşən məsuliyyətli və tarixi işin öhdəsindən uğurla gəlib. Tele-operanın quruluşçu rejissoru Akademik Opera və Balet Teatrının baş rejissoru, Əməkdar incəsənət xadimi Hafiz Quliyev, xormeysteri Sevil Hacıyevadır. Qərblə Şərqin sintezi, həmçinin aktyorların fərqli daxili dramaturgiyası tamaşaçılara aydın şəkildə açılır. Fürsətdən istifadə edib, bütün yaradıcı heyətə, bu layihənin gerçəkləşməsində əziyyəti olan əməkdaşlarımıza minnətdarlığımı bildirirəm. Düşünürəm ki, bu tele-opera gələcək nəsillərə bir töhfə olacaq".

# Akademik Məmməd Cəfər Cəfərovun 110 illiyi qeyd ediləcək



Prezident İlham Əliyev Akademik Məmməd Cəfər Cəfərovun 110 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb. AZƏRTAC xəbər verir ki, Sərəncamda Azərbaycan Milli Elmlər Akademiyasına Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə akademik Məmməd Cəfər Cəfərovun 110 illiyinə dair tədbirlər planını hazırlayıb həyata keçirmək, Nazirlər Kabinetinə isə bu Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

Sərəncamda bildirilir ki, 2019-cu ilin may ayında görkəmli ədəbiyyatşünas və tənqidçi, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü, Azərbaycanın Dövlət mükafatı laureatı, əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Məmməd Cəfər Zeynalabdin oğlu Cəfərovun anadan olmasının 110 illiyi tamam olur.

Akademik Məmməd Cəfər Cəfərov ömrünün 60 ilə yaxın bir dövrünü ölkədə ədəbi-nəzəri fikrin inkişafına həsr etmiş, ədəbiyyatın tarixi və nəzəriyyəsi, ədəbi əlaqələr və eləcə də estetikanın aktual məsələlərinə dair fundamental araşdırmaları ilə Azərbaycan ədəbiyyatşünaslığını əhəmiyyətli dərəcədə zənginləşdirmişdir.

# Erməni iqtisadçı Paşinyan hökumətini "yıxıb-sürüdü"

## Vardan Bostancyan: "Vətəndaşlar dəhşətli qeyri-müəyyənlik içindədirlər, onlar peşman olublar"

***Ermənistanın baş naziri Nikol Paşinyanın Strasburqda erməni icması ilə görüşü zamanı 50 min yeni iş yerinin açılacağı ilə bağlı dediyi sözlər erməni ictimaiyyətində istehza doğurub. Artıq hakimiyyətinin bir ilini geridə qoymuş Paşinyan və onun komandası "məxməri inqilab" zamanı, sayəsində iqtidara yiyələndiyi xalqa verdiyi vədlərini yerinə yetirə bilmir. Onun mövcud problemləri həll edə bilməməsi, narazıların sayını get-gedə artırır. Ermənistanın belə bir vəziyyətdə ayaqda dayana bilməməsində bütün günahlar isə, Paşinyan və onun komandasının üzvlərində görülür.***



### "Baş nazirə verilmiş bu informasiya cəmiyyətdə açıq şəkildə qəzəb və təəccüb doğuracaq"

Bu vədlə bağlı "1in.am" saytına müsahibə verən erməni iqtisadçı eksperti Vardan Bostancyan bildirib ki, Paşinyan həmin görüşdə 50 deyil, 51, hətta 100 min iş yerinin açılacağı ilə bağlı vəd verə bilərdi, lakin istənilən halda, Ermənistan respublikasının vətəndaşları qeyri-müəyyən və çaşqın vəziyyətdədirlər: "Məsələ onda deyil ki, onlar işsizdirlər, onlarda gəlir də yoxdur və bu fonda 50 min iş yeri barədə elan verilərkən, baş nazirə verilmiş bu informasiya cəmiyyətdə açıq şəkildə qəzəb və təəccüb doğuracaq".

V.Bostancyan Ermənistandakı vergi kodeksini də sərt şəkildə tənqid atəşinə tutub və bildirib ki, yeni qəbul edilmiş sənəd heç nəyə cavab vermir. "Burada lirik yanaşma var ki, situasiyanı dərk etməyə, ona yiyələnməyə imkan vermir" deyən erməni iqtisadçı-ekspert əlavə edib ki, vergilər gah azaldılır, gah artırılır, gah ümumiyyətlə, götürülür, sonra isə yenidən təyin olunur, bir az indi dəyişək, bir az da sonra: "Bu, onu göstərir ki, biz vəziyyətə sahib olmayan situasiya ilə qarşı-qarşıya qalmışıq. Bütövlükdə, biz haraya doğru getdiyimizi bilməliyik. İqtisadi planlaşma cəhətdən hansı üstün məsələlər var, biz bu problemləri necə həll edəcəyik, hansı vasitələrdən istifadə etmək olar, bütün bunlarla yanaşı, biz hansı vergi münasibətlərini quracağıq? Mən, kimi isə söymək istəmirəm, sadəcə, istəyirəm ki, bu məsələdə yanaşma məntiqli, başa düşülən olsun, daha özünü tərif etməklə deyil. Çünki onlar (Paşinyan hökuməti-R.N.) özlərindən çox razıdırlar".

### "Bizdə başqa uğurlar olmadığı üçün, indi də avtomobil qəzalarının sayının azalmasını uğur kimi təqdim edirik"

Erməni iqtisadçı digər bir məsələyə də toxunaraq, bildirib ki, Ermənistanda kiçik və orta sahibkarlıq çox pis vəziyyətdədir. "Mən inklizivlik barədə danışmaq istəməzdim, hazırkı məqamda vətəndaşlar dəhşətli qeyri-müəyyənlik içindədirlər, onlar peşman olublar. Hansı ki, bir il qabaq böyük gözləntilər zamanı insanlar kiçik və orta biznesin inkişafına, bu istiqamətdə verilən vədlərə inanırdılar, indi isə hər şey domino daşları kimi aşıb-dağılır, heç nə yoxdur. Bizdə başqa uğurlar olmadığı üçün, indi də avtomobil qəzalarının sayının azalmasını uğur kimi təqdim edirik. Bu, bişmiş toyuğu da güldürə biləcək bir haldır.

**Rövşən NURƏDDİNOĞLU**

# "Formula-1" üzrə dünya çempionatının tamaşaçı auditoriyası bütün qitələri əhatə edir

***Azərbaycanın sosial-iqisadi inkişafı, islami dəyərlərin, islam mədəniyyət nümunələrinin mühafizəsi, islam həmrəylinin təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər, İƏT və Avropa Şurasının üzvü kimi Qərblə islam dünyası arasında mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsinə töhfəsini verməsi, tolerant cəmiyyət olması beynəlxalq ictimaiyyətin ölkəmizə marağının artmasında əsas amillərdəndir.***



Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən, ideyalarını gerçəkləşdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasətinin məntiqi nəticəsi olaraq, ölkənin davamlı iqtisadi inkişafı təmin edilib, bölgələr arasında regional tarazlıq bərpa olunub, yerlərdə sosial-mədəni infrastruktur obyektləri yenidən qurulub, yeni istehsal, habelə, xidmət müəssisələri istifadəyə verilib. Azərbaycan beynəlxalq miqyaslı mötəbər yarışlara, qlobal forumlara, konfranslara, bir sözlə, nüfuzlu tədbirlərə ev sahibliyi edir. Beynəlxalq miqyaslı tədbirlərin keçirilməsi üçün ölkəmizə olan etimad Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin uğurlu xarici siyasəti sayəsində Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınmasının göstəricisidir.

Bir neçə aydan sonra ölkəmizdə yenidən "Formula-1" yarışlarına start veriləcək. Ötən illərdə paytaxt Bakıda keçirilən "Formula-1" Avropa Qran-Prisi yarışlarını dünyanın 200-yə yaxın ölkəsində 500 milyondan çox azarkeş televiziya vasitəsilə izləyib. "Formula-1" üzrə dünya çempionatının tamaşaçı auditoriyası bütün qitələri əhatə etdi. Amerika, Avropa, Avstraliya, Asiya və Afrika ölkələrinin televiziya kanallarında yarışlar müntəzəm yayımlanır. Beş yüz milyon televiziya tamaşaçısının Avropa Qran-Prisində ən güclü pilotlarının mübarizəsini izləməklə yanaşı, şəhərimizin gözəlliyi ilə tanış olur, müasirliklə qədimliyin simvollarını özündə birləşdirən Bakı haqqında geniş məlumat əldə edə bildilər. ABŞ-ın, Böyük Britaniyanın, Kanadanın, Fransanın, İspaniyanın, Avstraliyanın, Braziliyanın, Portuqaliyanın, Almaniyanın, İtaliyanın, Cənubi Afrika Respublikasının, Rusiyanın, Yaponiyanın, Polşanın, Hindistanın məşhur televiziya kanalları Bakı Qran-Prisini yayımlamaqla yanaşı, paytaxtımıza həsr olunan reportaj və materiallar hazırlayırlar. Azərbaycanın beynəlxalq nüfuzlu yarışlara yüksək səviyyədə ev sahibliyi etməsi, qədim tarixi abidələrimiz diqqətdən kənarda qalmır.

Azərbaycan Prezidenti İlham Əliyev "Formula 1" Qrupunun baş icraçı direktoru Çeyz Kerini qəbul edən zamanı, o, "Formula 1" çərçivəsində ötən il keçirilən 21 yarışın təhlili nəticəsində, Bakıda keçirilən bu yarışın ən yaxşı yarış hesab edildiyini bildirib.

Bakı bütün iştirakçı və qonaqları, hər zaman olduğu kimi, növbəti tədbirdə də ev sahibi olaraq yüksək səviyyədə qarşılayaraq, yarışı uğurla yekunlaşdıracaq. Paytaxtımızda keçirilən yarışlara dünyanın aparıcı KİV-ləri hər zaman öz münasibətlərini ifadə edirlər. Yaponiyanın "Fuji-TV.Next" televiziyası birbaşa reportaj zamanı "Formula-1" yarışının Azərbaycan mərhələsinin özünəməxsusluğu ilə seçildiyini xüsusi vurğulamışdılar. Təbii ki, Bakıda pilotlar qeyri-adi ab-havası ilə seçilən, əfsanəvi tarixi yerləri əhatə edən və heç bir yerdə bənzəri olmayan trekdə yarışıblar. Təhlükəsizliyin ən yüksək səviyyədə təmin olunduğu Bakı treki ən sürətli yarışlar kateqoriyasına daxildir. Trek Bakının tarixi məkanlarından - dəniz sahilindən keçməklə, azarkeşlərdə xoş ovqat yaratmış olur. Yaponiyanın "www.as-web", "F1-Gate.com", "f1.express.cnc.ne.jp" və digər internet saytlarında dərc edilmiş məqalələrdə də bu idman tədbiri vasitəsilə Bakının gözəlliyi, tarixi məkanları və dinamik inkişafının bütün dünyaya nümayiş etdirilməsi xüsusi vurğulanmışdı. İspaniyanın avtomobil idmanı sahəsində ixtisaslaşmış "motor.es" portalı, Almaniyanın "Handelsblatt" qəzeti və digər mətbu orqanları "Formula-1" yarışına münasibətlərini ifadə etmişdilər. "Formula 1" yarışının Azərbaycanda keçirilməsinin daha üç il uzadılması da Azərbaycanın Qran-Priyə uğurla ev sahibliyi etməsinin göstəricisidir. Elə bu günlərdə Monteneqronun ictimai radio və televiziya xidmətinin internet səhifəsində, eləcə də, Bolqarıstanın nüfuzlu "Dnevnik" nəşrində "Formula 1" Azərbaycan Qran-Prisi barədə məlumat yayılıb. Məlumatda "Formula 1" qrupunun baş icraçı direktoru Çeyz Kerinin Azərbaycana səfəri çərçivəsində Qran-Prinin Bakıda 2023-cü ilədək keçirilməsinə dair müqavilənin imzalandığı qeyd olunub. Rumıniyanın "News.ro" xəbər portalı da bu məlumatı yayıb. Məlumatlarda yarışın keçirildiyi ölkənin iqtisadiyyatına müsbət təsiri və yerli şirkətlər üçün yeni imkanlar açması da yer alıb.

Azərbaycan növbəti dəfə də "Formula 1" Azərbaycan Qran-Prisinə uğurla ev sahibliyi edəcək. Hər zaman olduğu kimi, yüksək təşkilatçılığı ilə öz sözünü deyəcək.

**Nəzakət ƏLƏDDİNQIZI**

## BSU tələbələri Cocuq Mərcanlıya yola düşüblər



Dünən Bakı Slavyan Universitetinin IV kursunda təhsil alan bir qrup tələbə aprel döyüşlərinin üçüncü ildönümü ərəfəsində könüllü olaraq Cəbrayıl rayonunun Cocuq Mərcanlı kənd orta məktəbinə pedaqoji təcrübəyə yollanıblar. BSU tələbələrini Təcrübə və məzunların karyera inkişafı şöbəsinin müdiri Yaşar Alxasov, təcrübə rəhbəri kimi Rus dili və onun tədrisi metodikası kafedrasının baş müəllimi Ərkinaz Məmmədhəsənzadə müşayiət ediblər. Cocuq Mərcanlıya yola düşən tələbələr - Azərbaycan filologiyası və jurnalistika fakültəsinin tələbələri Samir Abdulov, Leyla Hacıyeva, SABAH qruplarının Rus dili müəllimliyi üzrə təhsil alan tələbəsi Zarema Tintinova, Pedaqoji fakültənin Rus dili müəllimliyi ixtisası üzrə təhsil alan tələbəsi Ülviyyə Mədətova, həmin fakültənin təhsildə sosial- psixoloji xidmət ixtisasının tələbəsi Kamilə Abbasova işğaldan azad olmuş Cocuq Mərcanlı kəndində pedaqoji təcrübə təşkil etdiyinə görə, BSU rəhbərliyinə minnətdarlıqlarını bildiriblər. Gənc müəllimlər Cocuq Mərcanlıda pedaqoji təcrübə keçməyi qürurverici hal kimi dəyərləndirərək, Vətənimizin gələcəyi naminə çalışmağın hər bir Azərbaycan vətəndaşının borcu olduğunu deyiblər. Tələbələr bildiriblər ki, pedaqoji təcrübə aprel döyüşlərinin üçüncü ildönümü ərəfəsinə düşdüyü üçün Cocuq Mərcanlı kənd orta məktəbində vətənpərvərlik mövzusunda bir sıra tədbirlər və şeir müsabiqələri keçirəcəklər.

**ZÜMRÜD**

## MTX direktorunun anası Sarkisyanın köməkçisi oldu

Ermənistanın prezidenti Armen Sarkisyan ölkənin Milli Təhlükəsizlik Xidmətinin direktoru Artur Vanetsyanın anası Marqarita Azaryanı özünə köməkçi təyin edib. SİA xəbər verir ki, bu barədə news.am saytına erməni prezidentinin mətbuat xidməti məlumat yayıb. Qeyd edək ki, Ermənistan ictimaiyyətində və sosial şəbəkələrdə son vaxtlar Paşinyanın kadr seçimində yalnız özünə yaxınlığı ilə seçilən şəxsləri təyin etməsi məsələsi ətrafında müzakirələr gedir. MTX direktorunun anasının Armen Sarkisyana köməkçi təyin olunması məsələsində də bu məsələ barədə danışılmaqdadır.

**Rövşən**

# Müxalifət liderləri siyasi dəllallardan ibarətdir

***Siyasətdə uğur qazana bilməyən AXCP sədri Əli Kərimli və digərləri indi də başlayıblar hansısa məişət məsələsini, xırda sosial problemləri qabartmaqla, dividend qazanmağa və bununla da, diqqət mərkəzinə çevrilməyə çalışırlar. Söhbət etdiyimiz müsahiblərimiz bu cür ucuz məsələlərdən istifadə etməyin cılız düşüncənin məhsulu olduğunu və bunun Ə.Kərimliyə, eləcə də, onun ətrafında olanlara sarsıdıcı zərbə olacağını bildirdilər.***

## Millət vəkili Kamilə Əliyeva: “Əli Kərimli xarici ağalarından bir “malades” almaq üçün dəridən-qabıqdan çıxır”



- Siyasi etikadan və prinsiplərdən uzaq fəaliyyət göstərmək AXCP sədri Ə.Kərimlinin həyat tərzidir. Siyasi fəaliyyəti dövründə, o, sərsəm iddialarda olub, pozucu fəaliyyəti ilə seçilib. Çalışıb ki, diqqət mərkəzinə çevrilsin, şər və böhtanlarına görə, xarici ağalarından bir “malades” alsın. Yəni bir “malades” almaq üçün dəridən-qabıqdan çıxır. Bu baxımdan, onun siyasi fəaliyyəti utancvericidir. İndi də, Ə.Kərimli xırda məişət problemlərindən öz məqsədi üçün istifadə etməyə çalışır. Amma xalqımız bunların kim olduqlarını, onların özlərindən də yaxşı bilir. Ona görə də, xalq onun kimi boşboğazların cəfəng iddialarına, hay-küyünə əhəmiyyət vermir. Xalqımız həm də, ağı-qaradan seçməyi bacarır. Azərbaycan xalqı müdrik xalqdır və Prezidentimizin ətrafında sıx birləşib. Bunu bir daha keçirilən son sorğular da təsdiqlədi. Cənab Prezidentimiz İlham Əliyev ölkəmiz və xalqımız üçün çox işlər görüb. Hər bir vətəndaşın Prezidenti olduğunu xeyirli və gərəkli fəaliyyəti ilə göstərib. Ona görə də, xalq Prezidentini sevir, Ona inanır və etibar edir. Əminliklə deyə bilərəm ki, böyük sosial-iqtisadi, hərbi uğurlara imza atan Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə daha mütərəqqi uğurlara nail olacaq. Müxalifətin hay-küyü isə boş qazanı danqıldatmaqdan başqa bir şey deyil.

## TOHGMİB-nın sədri Emin Həsənli: “Müxalifətin iş-gücü erməni axçiləri kimi qeybət etməkdən ibarətdir”

- Müxalifət liderləri siyasi dəllallardan ibarətdir. Onlar sağlam təfəkkürdən və düşüncədən uzaqdır. Bir əməli iş sahibi də deyillər. İş-gücləri ancaq erməni axçiləri kimi qeybət etmək, erməni dığalarısayağı avara-avara danışmaqdan ibarətdir. Həmin boşboğazların indiki hay-küyləri boş və mənasızdır. Çünki hər kəs çox gözəl bilir ki, müxalifət, Hacılı, İsa Qəmbər və digərləri xırda məişət məsələlərini gündəmə gətirməklə, ən azı, mətbuatın diqqət mərkəzinə çevrilməyə çalışırlar. Halbuki hər zaman onların arasında qarşıdurma olub və bu gün də, o qarşıdurma davam etməkdədir. Qısası, onlar bir-birilərinə nifrət edirlər. Misal olaraq, “REAL” sədr İlqar Məmmədovla “Milli Şura”nın rəhbəri Cəmil Həsənli-AXCP sədri Ə.Kərimli qarşıdurmasını göstərmək olar. Ancaq İ.Məmmədov həbsdə olanda, ondan istifadə edib, hay-küy salır, bəzən də onu qəhrəman kimi təqdim etməyə çalışırdılar. Elə ki, İ.Məmmədov Cənab Prezidentin Əfv Sərəncamı ilə azadlığa çıxdı, dərhal dil qəhrəmanları mövqelərini dəyişdilər. İ.Məmmədov oldu düşmən, C.Həsənli və Ə.Kərimli ona qarşı hər cür ittihamlar irəli sürdülər, satqın və xəyanətkar adlandırdılar. Sual yaranır, niyə? Çünki İ.Məmmədov və ətrafındakılar bir çox məsələlərdə Ə.Kərimli və C.Həsənli ilə razılaşmır və bəzi məqamlarda bunların dediklərini qəbul etmir. Demək olar ki, müxalifət düşərgəsini təmsil edən bu şəxslər üçün bir prinsip var: biz yalan, böhtan desək, onu hər kəs qəbul etməlidir, qəbul etməyənlər satqın və xaindirlər, bizim düşmənlərdən biridirlər. Bax, bunların siyasətə yanaşmaları bundan ibarətdir. Artıq 26 ildir ki, müxalifət düşərgəsini təmsil edən şəxslər elə eyni bu cür yanaşmadadırlar və bunlarda heç nə dəyişməyib. Yəni əvvəlki fikir, əvvəlki ab-havanı və dəst-xətti saxlamaqdadırlar. Demək olar ki, müxalifətin özü də çox yaxşı bilir ki, bu gün onların xalqımız tərəfindən heç bir siyasi dəstəyi yoxdur və bundan sonra da olmayacaqdır.



## -”Kaspi” qəzetinin baş redaktoru İlham Quliyev: “Müxalifətə küçə təfəkkürlü avaralar yığını da demək olar”

- Müxalifət düşərgəsində təmsil olunan partiya sədrləri 25 ildən artıqdır ki, müxalifətdədirlər və iş-gücləri ancaq sərsəm bəyanatlar vermək, cəfəng iddialarla çıxış etmək olub. Onlara küçə təfəkkürlü, avaralar yığını da demək olar. Çünki bu günə qədər ortaya ciddi mövqe qoya bilməyiblər. Bu baxımdan da, sosial bazadan məhrum olublar və marginallaşmış çox kiçik bir qrupa çevriliblər. Onların xırda məişət problemlərini ortaya atmaları sosial şəbəkələrdə gündəm yaratmaq məqsədi daşıyır ki, bu da siyasətçi üçün heç də yaxşı hal deyil. Açıq desək, bir qədər gülüş doğurur. Ümumilikdə, onlar cəmiyyətdə ciddi qəbul olunmurlar. Ona görə də, müxalifətin qaldırdığı məsələlər ironiya ilə qarşılanır və rədd edilir. İctimai rəydə mənfi imicə malik olduqlarını özləri də bilirlər. Sadəcə, xarici ağalarının tapşırıq və göstərişləri onlara reallığı həzm etməyə imkan vermir. Hər vəchlə hay-küy qaldırmaqla, boş və mənasız ideyalarla, cəfəng iddialar irəli sürməklə, az müddət də olsa, gündəmdə qalmağa çalışırlar. Ancaq yaxşı olardı ki, müxalifət başbilənləri bu cür anormal hərəkətlərindən əl çəksinlər. Siyasətdən getsinlər və ciddi bir sənət sahibi olsunlar. Yəni siyasət onlarlıq deyil.



***GÜLYANƏ***

# Rusiyalı politoloq: “Onlar dialoqu davam etdirməyə köklənibiblər”



Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı ictimai proses dalana dirənib, ancaq burada qeyri-ictimai proseslər də var. SİA xəbər verir ki, rusiyalı politoloq Stanislav Tarasovun fikirlərini tert.am saytı yazır. Politoloq qeyd edib ki, ölkə liderlərinin, yaxud yüksək çinli məmurlarının bəyanatları aparılan prosesin yalnız bir kiçik hissəsidir və mümkündür ki, onlar prosesin dalana dirənməsi təəssüratını yaradırlar.

“Onlar ictimai şəkildə mübahisə aparırlar, bir-birlərinin mövqelərini qəbul etmirlər, yanaşmalarını rədd edirlər, görüşlərə razılıq vermirlər. Lakin qeyri-ictimai sferada elə məsələlər var ki, onları müzakirə etmək mümkündür, elə deyilmi? Əgər görüşürlərsə, demək ki, onların gündəmi var və biz mümkündür ki, bundan xəbərsizik”, Tarasov bildirib. Rusiyalı politoloq həmçinin iddia edib ki, ikili standart siyasətini ATƏT-in Minsk qrupu da yürüdür. “Hər kəs oynayır və bunun məntiqi açığını desəm mənə aydın deyil”, deyə o qeyd edib.

Tarasov xatırladıb ki, ATƏT-in Minsk qrupunun egidası altında Ermənistanın baş naziri və Azərbaycanın Prezidenti ilk dəfə Vyanada qeyri-rəsmi görüş keçiriblər ki, bu da müzakirə ediləcək məsələlərin mövcudluğunu göstərir. Onun sözlərinə görə, Paşinyan-Əliyev söhbəti 3 saata yaxın davam edib ki, bu da diplomatik dillə desək, az vaxt deyil, kifayət qədər çoxdur. “Onlar dialoqu davam etdirməyə köklənibiblər”, politoloq bildirib. Onun sözlərinə görə, görüşün nəticələri nəzərə alınarsa, hələ ki, konkret razılaşmalar yoxdur.

***Rövşən NURƏDDİNOĞLU***



**Təhmasib Novruzov**

# Köhnə hamamın köhnə tasçıları

***Nə qədər gözləyirsən ki, bu ölkənin beli bükülmüş, çəlikli müxalifət oyunbazları, nəhayət ki, uğursuz fəaliyyətlərinin millətə və dövlətə vurduğu zərərləri anlayacaq və kənara çəkiləcək, olmur ki, olmur. Elə bil, üzlərinə durublar. Bir sağlam düşüncəli müxalif qüvvə meydana gələn kimi, bu ac qurdlar onun üzərinə necə cumurlarsa, onlar da abır-həya eliyib, çəkilirlər bir kənara. Beləcə, meydan boş qalır və köhnə tasçılar yenə başlayırlar köhnə hamamda su çiləməyə.***

Bu günlərdə AXCP deyilən qurumun sədr vəzifəsini oğurlayan Əli Kərimlinin Atlantika sahillərindən yayımlanan Sevinc Osmanqızının TV-də müsahibəsini izlədim. Ona görə izləmədim ki, nə isə ağıllı bir söz deyəcək. Ondan bunu gözləməyinə də dəyməz. Bu hakimiyyət, bir ildən artıqdır ki, sosial islahat paketindən danışır, nəhayət, bu ilin yanvarından islahatlara start verir, bu binəvalar bağırırlar ki, hakimiyyət bizdən qorxdu (Yadıma Dulsineya üçün düzlərə düşüb “qəhrəmanlıqlar” göstərən məşhur Don Kixot düşdü!..), ona görə islahatlara başladı. Zəlzələdən, ardınca yanğından zərər çəkənlərə dəstək oldu, yenə qurumuş sinələrini qabağa verdilər. Bir sözlə, hökumətdə xırda nöqsan olur, bağırırlar, hakimiyyət millət üçün dünyada anoloqu olmayan sosial addımlar atır, bağırırlar. Belədə, lazımdır ki, onların bağırtısını arı, hətta milçək vızıltısı hesab edib, əlinin yeli ilə rədd edib, yoluna davam edəsən. Amma mən bu müsahibəni (Daha doğrusu, iki qadının qeybətini) izlədim ki, görüm bəlkə Avropa dəyərlərindən danışan, Avropa dəyərlərini bizə örnək göstərən bu binəvalar, elə avropalıların Azərbaycanda apardığı sosial sorğunun nəticələrini görüb, bir az ağıllı, obyektiv fikir səsləndirəcək, ya yox! Amma hardan? Yenə köhnə hamam, köhnə tas! Zavallı deyir ki, millətin 95 faizi bu hakimiyyəti istəmir. Ay ədalətdən danışan, faktlardan danışan, Avropa dəyərlərindən danışan bədbəxt, heç olmasa, üç gün öncə, avropalıların özlərinin keçirdiyi sorğu ilə tanış ol, sonra çıx da efirə. Bunu da iqtidar təşkil eləməmişdi ki! Həmin sorğuda xalqın 90 faizindən çoxunun Prezident İlham Əliyev hakimiyyətinə dəstək verdiyini bidirir, sən çıxıb utanmaz-utanmaz deyirsən ki, xalqın 95 faizi bu hakimiyyəti istəmir? Budu sizin ədalətiniz, obyektivliyiniz, haqqa söykənməyiniz? Xalq səni nə vaxtdan vəkil edib axı? Parlamentdə bir yer belə tuta bilməyən siyasi təşkilatın rəhbəri xalqın adından hansı ixtiyarla danışır?

Nə isə, müsahibədə çox naqqal-naqqal ifadələrin şahidi oldum. Çox istərdim ki, onların hər biri ilə bağlı faktları uzun-uzadı sadalayıb, boş və mənasız danışdıqlarını sübut edim, necə deyərlər, quzularını bir-bir qoyum qabağına. Ancaq buna nə vaxtım var, nə də həvəsim. Sadəcə, yadıma B.Vahabzadənin “Latın dili” şerinin girişi düşdü:”Atlantika sahilində əsə-əsə, coşa-coşa, mən azadam, mən xoşbəxtəm deyir natiq yad dilində”. İndi Atlantika sahillərində oturub, erməni pulu ilə televiziya açanlar, “Biz millətçiyik, biz xalqımızı sevirik” deməkdən nə zaman utanacaqlar görəsən? Bir qarabağlı kimi, Qarabağ uğrunda gedən savaşın ən ön sıralarında olmuş vətəndaş kimi nə özü, nə də övladları hərbi xidmətdə olmayan, özü də, oğlu da ermənilərlə dostluq edən birisinin bu mövzuda danışmağa heç haqqı yoxdur. Yüksək dövlət vəzifəsini zəbt etdiyi zamanlarda belə, bir dəfə olsun Qarabağa, döyüş bölgələrinə səfər etməyən birinin, bütün bayramları, hətta özünün doğum gününü döyüş bölgəsindəki əsgər və zabitlərlə birlikdə qeyd edən Prezident, Ali Baş Komandan haqqında söz deməyə nə mənəvi, nə də hüquqi ixtiyarı var. 25 illik müxalifətçilik dövründə Qarabağ məsələsi ilə bağlı bir bəyanat, bir müraciət belə səsləndirməyənlər, heç olmasa, ayıblarına kor olub, siyasi bizneslərini idarə etməklə məşğul olsunlar. Qarabağ kartından bir dəfə istifadə edib, hakimiyyəti zəbt edənlər, yenidən bu problemlə qumara girmək istəsələr, alacaqları zərbənin ağırlığına dözə bilməyəcəklər...

# Çamura bulaşmış xəyanətkar

*Əli Kərimlinin xəyanətkar əməlləri sonsuzluğa doğru...*

***AXCP sədri Əli Kərimlinin satqın əməlləri, milli maraqlarımıza qarşı etdiyi xəyanətləri ictimaiyyətə bəllidir. Vaxtilə onunla eyni "cəbhədə" olan şəxslərin açıqlamaları və aparılan araşdırmalar Ə.Kərimlinin xəyanətkar əməllərini bir daha üzə çıxarmış oldu.***

Ə.Kərimli, məgər bilmirdinmi ki, haqq nazilər, amma üzülməz. Deyəndə ki, Ə.Kərimli xəyanətkar, satılıb-satan, Vətən xainidir, irad tuturlar. Artıq neçə müddətdir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində Ə.Kərimli ilə bağlı məhkəmə zamanı bir çox kartların üzə çıxması AXCP sədrinin həm də satqın olmasını sübuta yetirir. Məhkəmə zamanı şahid qismində dindirilənlərin verdikləri ifadələr, bir daha AXCP sədri Ə.Kərimlinin xarici qüvvələrin göndərdiyi maliyyəni əldə etmək məqsədi ilə, ölkədə təxribatlar törətməyə çalışdığını sübuta yetirir. Dindirilən şahidlər Elçin Əsgərbəyli, Cavid Məsimli, Tural Mehdixanov və Cavanşir Abışov AXCP sədrinə vəsait toplanıldığını və bu pulların Ə.Kərimliyə çatdığını bildiriblər. Ən əsas məqam isə, Rusiyada da toplanılan vəsaitlərin qanunsuz yollarla Ə.Kərimliyə ötürüldüyü məlum oldu.

## Növbəti düyün...

Şahidlərin verdikləri növbəti açıqlama isə, AXCP ilə "Milli Şura"nı bir-birinə qatdı. Bildirildi ki, 2013-cü ilin prezident seçkiləri ərəfəsində Rusiyada hazırlanıb, Bakıya ixrac edilən "Milli Şura"nı Rusiya vətəndaşlığı olan kinorejissor Rüstəm İbrahimbəyov gətirsə də, bu ölü quruma sədrlik etməməklə, bir daha qorxaqlığını ortaya qoydu. Yaranmış vəziyyətdən istifadə edən Ə.Kərimli "Milli Şura"nı AXCP-nin bir şöbəsinə çevirdi. Anlaşılan bu idi ki, Kremldəki bəzi dairələrin himayəsi ilə qurulan bu qurumun bağlantıları Kərimliyə çox lazım idi. Eyni zamanda, cəbhəçilər də təsdiqləyiblər ki, Rusiyadan hər ay AXCP-yə 30 min dollar pul gəlib. Vəziyyətin belə alınacağını görən Ə.Kərimli bunun hesabatını saxta tərzdə verərək, bildirib ki, guya hər ay Rusiyadan ona 500, bəzən 1000 dollar məbləğində dəstək gəlir. Düz 30 dəfə



saxtakarlıq!

Məlum olan fakt budur ki, ümumilikdə Moskvadan hər ay "Milli Şura" və AXCP adlı qurumlara nə az - nə çox, düz 412 min dollar vəsait daxil olub.

## Eynulla Fətullayev: "Ə.Kərimli quduz oğru itdən də pisdir"

Jurnalist Eynulla Fətullayev özünün facebook hesabında AXCP sədri və onun tərəfdarlarına həsr etdiyi statusda maraqdoğurucu iddia ilə çıxış edərək bildirib ki, Ə.Kərimli və digər murdar cəbhənin virusları oğru itlərdir: "Bu siyasi cinah öz murdar mahiyyətini ortaya qoyur. Məncə, günahkar Ayaz Mütəllibovdur. 1992-ci ildə bu nadan siyasi kütləni quduz it kimi "uf" da demədən güllələyərdi. E.Fətullayev, həmçinin, 19 yanvar mitinqinin sonra AXCP sədri Ə.Kərimlinin sosial şəbəkələrdə ABŞ-da yaşayan xəyanətkar Sevinc Osmanqızının verilişindən xalqı iqtidarın deyil, müxalifətin mətbuat orqanlarını oxumağa çağırış etməsi, əsl satqınçılıq, xəyanətkarlıq, riyakarlıq və nəhayət, həyasızlıqdır. 24 il ərzində dəyişməyən iyrənc alçaqları Azərbaycan siyasətindən, Azərbaycan məmləkətindən tamamilə silmək lazımdır! Bu murdar kütləyə tarixdə 2-ci şans verilməməlidir. Vəhşi siyasi qüvvəni hakimiyyətə buraxmaq olmaz!!! Əgər siz düşünürsünüzsə ki, bunlar hamısıdır, bərk yanılırsınız. Hələ daha çox murdarçılıqlar var..."

## Lalə Şövkət: "Kişi olmaq Əli Kərimliyə aid deyil"

"Milli Birlik Hərəkatı"nın sədri Lalə Şövkətin dəfələrlə Ə.Kərimlini alçaq və əxlaqsız adlandırıb: "Azərbaycan siyasətində Ə.Kərimli kimi belə bir mənəviyyatsızlıq görməmişdim. Adam düşmən olanda, gərək kişi kimi düşmən olsun. Ə.Kərimlidən çox alçaq səviyyəli düşmənçilik gördüm. Əslində, Ə.Kərimlinin kimliyi haqqında çox yazılıb, çox deyilib. Ancaq "kişi" olmaq Ə.Kərimliyə aid deyil".

KXCP-nin sədri Mirmahmud Mirəlioğlu da Ə.Kərimliyə keçmişi xatırladaraq, onun bu gün siyasi arenada hörməti olmayan və küncə sıxışdırılmış xəyanətkar və satqın olduğunu bildirib: "Bu gün Azərbaycan gerçəkliyində Ə.Kərimli xəyanətkarlığı var, özü də saya gəlməz xəyanətləri...1995-ci il... Ə.Kərimli AXC-ni partiyaya çevirmək tapşırığını uğurla yerinə yetirdi və mandat sahibi oldu. 1996-cı il... AXCP daxilindəki "Yurd" fraksiyası partiyanı tam özəlləşdirmək üçün fəal cəbhəçilərə və hərəkatçılara qarşı təzyiqlərə başladı, bir çox insanı cəbhədən uzaqlaşdırdı. 1997-ci il... Xaricdən aldığı maliyyə dəstəyi nəticəsində, Ə.Kərimli media vasitəsilə Əbülfəz Elçibəyə zərbələr vurdu, 2005-ci il... Ə.Kərimlinin Ruslan Bəşirli olayı və çevriliş planı fiaskoya uğradı. 2008-ci il... Qənimət Zahidi qurban verib, diqqəti özünə çəkən Ə.Kərimli Sem dayısından pul almaq üçün planlar qurdu. Aqil Xəlil deyilən olayı da Ə.Kərimlinin qurduğu iyrənc oyunlardan biri idi. Məlum oldu ki, A.Xəlili bıçaqlayan küçədən keçən şəxs deyil, məhz Ə.Kərimlinin yaxından tanıdığı mavidir. Beləcə Ə.Kərimlinin bu planı da suya düşdü. O, qazdığı quyuya özü düşdü. Ə.Kərimli həm də ermənilərin dostudur. O, bu "fəxri damğa"nı böyük iftixarla daşıyır".

Beləliklə, cəmiyyət dəfələrlə bu cür qüvvələrin qarşısının alınması tələbini irəli sürür. Ona görə də, Azərbaycan iqtidarı dövlətin və millətin maraqlarını heçə sayan, hər kəsi mənəvi terrora məruz qoymağa çalışan Ə.Kərimli və onun kimi anti-milli ünsürlər barəsində sərt ölçü götürməli, belələrini cəmiyyətdən təcrid etməlidir.

***R.HÜSEYNOVA***

# Rüstəm İbrahimbəyovu təhrik edənlər kimlərdir?

*Kinorejissor siyasətə güclə gətirildiyini iddia edir*

***Qondarma qurum olan "Milli Şura"nın "fəxri sədri" kimi qalan kinorejissor Rüstəm İbrahimbəyovun siyasi təcrübəsizliyi və tez-tez mövqe dəyişkənliyi, xüsusilə, AXCP rəhbərliyi tərəfindən aldadılaraq, prezidentliyə namizədliyinin irəli sürülməsi müxalifət düşərgəsinin bir sıra partiya sədrləri tərəfindən araşdırılmaqdadır. Əsasən, "oxu" hələ 2013-cü ildə kinorejissorun əsas təbliğat ruporu olmuş AXCP-yə tərəf atan müxalifətçi partiya sədrləri bu və ya digər şəkildə ittihamlarını davam etdirir və bir sıra maraqlı mülahizələrini irəli sürürlər.***



## "VİP" sədri Əli Əliyev: "75 yaşlı ziyalını aldadıb seçkiyə qatırlarsa, o zaman iradəsiz bir adam necə prezident ola, ölkəni idarə edə bilərdi?"

Misal üçün, "VİP" sədri Əli Əliyev hələ 2013-ci ildə "Milli Şura"ya sədr təyin edilməsini ən sərt şəkildə tənqid edən şəxslərdən olub. O, bununla bağlı mətbuata açıqlamasında bildirib ki, həmin vaxt heç kim onu tənqid etmirdi, hamı ətrafına toplaşmışdı. "Hesab edirəm ki, kənar ölkənin vətəndaşı olan birinin prezidentliyə namizədliyinin irəli sürülməsi dövlətə ziyan gətirə bilərdi" deyən "VİP" sədri əlavə edib ki, İbrahimbəyov bu dəfə də qeyri-səmimi danışıb: "Əgər doğrudan da, 75 yaşlı ziyalını aldadıb seçkiyə qatırlarsa, o zaman iradəsiz bir adam necə prezident ola, ölkəni necə idarə edə bilərdi? Üstəlik, söhbət Qarabağ problemi olan, müxtəlif güclərin maraqlarının toqquşduğu bir ölkədən gedir. O halda, İbrahimbəyov necə dövlətə rəhbərlik edəcəkdi? Yəni namizədliyini iradəsiz irəli sürdüyünü, təhrik olunduğunu deməsi qeyri-səmimilikdir".

Beləliklə, kinorejissorun yalan danışdığını və o cümlədən, xarici qüvvələrin layihəsini icra etdiyini iddia edən Ə.Əliyev daha bir xatırlatmanı da edərək, R.İbrahimbəyovun, əslində, bilə-bilə bu işlərə baş qoşduğunu bildirib. Daha dəqiq desək, müxalifətçi partiya sədri eyham vurur ki, 2013-cü ilin "Milli Şura" layihəsi heç də İbrahimbəyovun iradəsizliyinin nəticəsi olmayıb: "Bu, kənar güclərin, qurumların layihəsiydi, onun mərkəzində İbrahimbəyov fiquru dayanırdı, o da prosesə "Milyarderlər İttifaqı" üzvü kimi qatılmışdı".

## "Ümid" partiyasının sədri İqbal Ağazadə: "Siyasət siyasətçinin işidir"

"VİP" sədri ilə yanaşı, "Ümid" partiyasının sədri İqbal Ağazadə də düşünür ki, siyasətdən başı çıxmayan birinin siyasətə qatılması, ölkə rəhbəri vəzifəsinə iddia etməsi doğru seçim ola bilməzdi. Bu seçim olubsa belə, nəticəsi gözlər önündədir. "Siyasətlə peşəkarlar məşğul olmalıdırlar" deyən İ.Ağazadə R.İbrahimbəyovun zorla "Milli Şura"ya sədr və sonradan prezidentliyə namizəd kimi irəli sürülməsi barədə dediklərinə dəqiq cavab verə bilməyəcəyini bildirib: "Mən indi bilmirəm ki, İbrahimbəyovu həmin dövrdə "Milli Şura"dakılar prezidentliyə namizəd olmağa təhrik ediblər, ya yox, lakin siyasət siyasətçinin işidir".

Bütün bunlar isə, ilk növbədə, ölü qurum kimi tanınan "Milli Şura"nın mövcud idarəçiləri üzərində nəticəsini tapan reallıqlardır. Yəni AXCP sədri Ə.Kərimlinin hələ o zamanlar R.İbrahimbəyovu sədrliyə gətirilməsində israr etməsi, sonradan Müsavat partiyasının, məhz İbrahimbəyova görə "Milli Şura"nı tərk etməsi və s. olaylar artıq bütün həqiqətləri ortaya çıxarıb. Düzdür, kinorejissor özünü təmizə çıxarmaq üçün müəyyən iddialar və ittihamlar irəli sürə bilər, lakin fakt budur ki, həmin faktlar öz təsdiqini tapır.

***Rövşən RƏSULOV***

## Çində dərman şirkətində baş verən yanğında 10 nəfər ölüb



Çinin Şandun vilayətində dərman şirkətində baş verən yanğında ən azı 10 nəfər ölüb, 12 nəfər yaralanıb. Bu barədə yerli hökumət məlumat yayıb. Hələlik hadisənin başvermə səbəbləri bilinmir. Yaralılar xəstəxanalara çatdırılıblar.

## Şəkidə narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxs saxlanılıb



Şəki Şəhər Rayon Polis Şöbəsinin əməkdaşlarının həyata keçirdikləri növbəti əməliyyat-axtarış tədbirləri nəticəsində narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxs saxlanılıb.

Daxili İşlər Nazirliyinin Şəki regional qrupundan AZƏRTAC-a bildiriblər ki, daxil olan məlumat əsasında keçirilən əməliyyat zamanı əvvəllər Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə məhkum olunmuş şəhər sakini, 53 yaşlı Tehran Nəzərov şübhəli şəxs qismində saxlanılıb. Keçirilmiş tədbirlərin davamı olaraq onun yaşadığı evə də baxış keçirilib. Oradan 12 ədəd kağız bükümdə 0,297 qram narkotik vasitə hesab edilən heroin, içərisində heroin qalıqları olan 4 şpris və sellofan torbada ümumi təmiz çəkisi 380 qram qurudulmuş marixuana aşkarlanaraq götürülüb. Faktla bağlı saxlanılan şəxs barəsində Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb, araşdırmalar davam etdirilir.

# Qadın hüquqlarının prioritet istiqamətləri

**_Qadın və silahlı münaqişələr xüsusi bölmə kimi göstərilirdi ki, bu da erməni təcavüzü nəticəsində, 20 % torpaqları işğal olunmuş ölkəmiz üçün son dərəcə aktual idi. Bu istiqamət üzrə müharibə zamanı zorakılığa məruz qalmış qadınların və uşaqların hüquqlarının bərpası və sosial-psixoloji reabilitasiyası ilə əlaqələr müxtəlif tədbirlər görülməsi planlaşdırılırdı (ümumən 7 tədbir)._**

Sevinc Abbasova yazır: "Bu problemin davamı olaraq, qaçqın və məcburi köçkün qadınlarla bağlı problemlər də strateji vəzifələr qəbilindən hesab edilirdi. Bu sahədə "Qaçqın və məcburi köçkün qadın və uşaqlar" proqramının hazırlanması, habelə onların sosial-iqtisadi problemlərinin həlli üzrə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulurdu (ümumən 8 tədbir).

Qadın hüquqları prioritet istiqamət kimi qeyd olunurdu. Bununla əlaqədar ilkin əhəmiyyətli vəzifələr sırasında "Qadın hüquqları - insan hüquqlarıdır" mövzusunda ölkənin müxtəlif bölgələrində konfrans və seminarların təşkil edilməsi, müvafiq informasiyaların yayılması, xüsusi tədris kursu proqramlarının işlənib-hazırlanması, qadın hüquqlarının yerlərdə həyata keçirilməsi vəziyyətinin öyrənilməsi, qadınların əmək hüquqlarının pozulması hallarının aşkara çıxarılması və bərpa edilməsi, qadınların hüquq bərabərliyini inkişaf etdirmək məqsədi ilə Həmkarlar İttifaqları və digər ictimai təşkilatlarla əlaqələrin genişləndirilməsi və s. tədbirlərin qəbul edilməsi göstərilirdi (ümumən 8 tədbir).

Bir başqa strateji istiqamət qadınlar və kütləvi informasiya vasitələri idi. Bu istiqamət üzrə qadınların kütləvi informasiya vasitələrinin fəaliyyətində daha fəal iştirakı üçün şəraitin yaradılması və idarəetmə səviyyəsində təmsil olunmalarının təmin edilməsi ilə bağlı tədbirlərin görülməsi və s, nəzərdə tutulmuşdu (ümumən 6 tədbir)."

Planda qadınların ekoloji problemləri sahəsi də ələ alınmışdı. Bununla əlaqədar, "Qadın və ətraf mühit" Dövlət Proqramının hazırlanması, ekoloji problemlərlə bağlı qərarların qəbul edilməsində qadınların iştirakının artırılması və s. vəzifələrin həyata keçirilməsi planlaşdırılırdı (ümumən 4 tədbir).

"Qız uşaqları" adlanan xüsusi bölmə qızların texniki, idman və s. peşələrə daha geniş yiyələnmələri üçün orta məktəblərdə xüsusi peşə yönümü işinin aparılması, azyaşlı qızların əxlaqsız hərəkətlərə - fahişəliyə cəlb edilməsi hallarına qarşı mübarizənin gücləndirilməsi, azyaşlı qızların nikaha cəlb edilməsinin qarşısını almaq üçün müvafiq tədbirlərin görülməsi, kimsəsiz, əlil qızların sosial reabilitasiyası ilə bağlı proqramın hazırlanması, əmək fəaliyyətinə başlamış qızlar və ümumiyyətlə, uşaqlar üçün sosial sığorta sisteminin gücləndirilməsi və s. tədbirləri ehtiva edirdi (ümumən 9 tədbir).

Qadınlarla bağlı xüsusi əhəmiyyət kəsb edən məsələlər dairəsinə onların hakimiyyət orqanlarında və qərar qəbul edilməsi prosesində iştirakına dair problemlərin bütöv spektri daxil idi. Milli Fəaliyyət Planı, bu baxımdan, xüsusi Dövlət Proqramının hazırlanmasını, hakimiyyət orqanlarında və qərar qəbul edilməsi prosesində qadınların kişilərlə bərabər təmsil olunmaları ilə əlaqadar tədbirlərin görülməsini, seçkilərdə, siyasətdə və ictimai həyatda qadınların iştirakının fəallaşdırılmasını, onların seçkilərdə fəal iştirakının təşkil edilməsini və partiyalarda təmsil olunmalarını stimullaşdırılmasını, "lider-qadın" treninqlərinin və elmi-praktik seminarların təşkil edilməsini, məhkəmə sistemində qadınların rolunun artırılması üçün müvafiq işlərin aparılmasını və s. prioritet vəzifələr sısırasında sadalayırdı (ümumən 7 tədbir).

Nəhayət, beynəlxalq qadın təşkilatları ilə əlaqələrin inkişaf etdirilməsi prioritet istiqamətlər sırasında göstərilirdi. İlk növbəli vəzifələr sırasına qadın mütəxəssislərin diplomatiya sahəsində daha geniş təmsil edilməsi, xarici ölkələrdə qeyri-dövlət qadın cəmiyyətləri və müvafiq respublika təşkilatları arasında əlaqələrin genişləndirilməsi, qadın problemləri üzrə beynəlxalq tədbirlərdə Azərbaycan nümayəndələrinin iştirakının təmin edilməsi və s. daxil idi (ümumən 7 tədbir).

Milli Fəaliyyət Planının müddəalarını həyata keçirmək üçün qurumlararası qrup yaradılmışdı. Milli Fəaliyyət Planının həyata keçirilməsində həm dövlət strukturlarının, həm də QHT-lərin iştirakı nəzərdə tutulmuşdu. Əlaqələndirici Şuranın üzvləri mütəmadi görüşlər keçirirdi. Belə görüşlərdə Milli Planın icrası ilə bağlı əldə edilmiş nailiyyətlər müzakirə edilir və onun həyata keçirilməsində qarşıya çıxan maneələr, həlli yolları müəyyən olunurdu. Doğuş təhlükəsizliyinin və yenicə doğulmuş körpələrə əsas qayğının artırılması məqsədilə BMT Uşaq Fondunun dəstəyi ilə 10 rayonda müvafiq təlimlər keçirilmişdir?

Beləliklə, genderin dövlət siyasətinə daxil edilməsi strategiyası icraçı orqanların iki səviyyəsində həyata keçirilməyə başlanıldı: Nazirlər Kabinetinin tərkib hissəsi olan nazirlik və idarələr səviyyəsində (Əlaqələndirici Şura); Prezident Aparatı tərəfindən əlaqələndirilən rayon icra orqanları səviyyəsində.

Y.Qasımova yazır: "Tezliklə ölkənin 16 rayonunun icra hakimiyyətləri orqanlarının tərkibində gender problemləri üzrə şöbələr yaradılmış, qadın problemləri üzrə Dövlət Komitəsinə və qadın QHT-sinə isə böyük miqdarda təşkilati-texniki dəstək göstərilmiş, gender bərabərliyinə aid olan tədqiqatlar və vacib beynəlxalq sənədlər Azərbaycan dilinə tərcümə edilmiş və gender bərabərliyi mövzusunda bir sıra kaskad treninqlər keçirilmişdir." Bundan əlavə, Milli Fəaliyyət Planının həyata keçirilməsi çərçivəsində hökumətin bütün mərkəzi icra orqanlarına və rayon icra hakimiyyəti orqanlarına gender üzrə məsul şəxslər təyin olundular. Lakin gender üzrə məsul şəxslərin texniki vəzifələri bəzən aydın göstərilmirdi. Həmçinin, o dövrdə yerlərdə gender təşəbbüslərini dəstəkləmək üçün resursların çatışmazlığı da çətinliklər doğururdu. MFP-nin effektivliyini məhdudlaşdıran mühüm maneələrdən biri də onun çərçivəsində nəzərdə tutulmuş 95 spesifik tədbirin həyata keçirilməsi üçün yetərli maliyyə vəsaitinin ayrılmaması idi.

Nəticədə, 2000-ci illərin əvvəllərində qadınlaın dövlət idarəçiliyi strukturlarında və qərar qəbuletmə prosesində iştirakı hələ də qənaətbəxş səviyyədə deyildi. 2001-ci ildə Azərbaycan hökumətində 2 nazir qadın, 3 nazir müavini işləyirdi. QPDK-nin AR Prezidentinin 2000-ci il 6 mart Fərmanında qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi ilə bağlı 84 rayonda keçirdiyi sorğunun nəticələrinə əsasən, 2003-cü ildə icra hakimiyyəti başçılarına kəndlərdəki 1947 nümayəndəsindən, sadəcə, 65-i, 2724 bələdiyyə sədrlərindən isə, 38-i qadın idi, 1999-cu ildə keçirilmiş bələdiyyə seçkilərində seçilən üzvlərdən 467-si qadın, 21047-si kişi olmuşdur.

Rayonlarda fəaliyyət göstərən 927 səhmdar cəmiyyətindən 45-nə, 19609 müəssisənin 1602-nə qadınlar rəhbərlik edirdilər. Hüquq- mühafizə və məhkəmə orqanlarında işləyən 17229 nəfərdən, yalnız 2278 nəfəri qadın idi. Bundan əlavə, 2004-cü ilin məlumatına əsasən, yalnız 3 qadın icra hakimiyyətinə rəhbərlik edirdi, məhkəmə sistemində 279 kişi və 45 qadın çalışırdı. O dövrdə icra hakimiyyəti başçılarının 410 müavinindən, sadəcə, 22 nəfəri, icra hakimiyyəti strukturlarında çalışan 577 şöbə müdirindən isə 55 nəfəri qadın idi. Respublika səhiyyəsində yüksək vəzifələrdə çalışan 88 nəfərdən yalnız 5-i qadın idi. Bu məsələdə cəmiyyətdə qadın və kişilərin sosial rolları haqqında stereotiplərin mövcud olması da öz sözünü deyirdi.

2004-cü ilə aid bilgilərə əsasən, dövlətimizin xaricdəki diplomatik korpusu 175 nəfərdən ibarət idi ki, onlardan 10-unu qadınlar təşkil edirdi. Azərbaycan Respublikasının 25 səfirindən biri və 2 vitse-konsulundan biri qadın idi. Xarici İşlər Nazirliyinin Mərkəzi Aparatında diplomatik vəzifələrdə çalışan 199 nəfərdən 41-i, o cümlədən, 14 idarə rəisindən yalnız biri və 22 şöbə müdirindən 5-i qadın idi.

T.Cəfərova yazır: "2000-ci ildə keçirilən seçkilər nəticəsində, ölkə parlamentinin 125 üzvündən 13-ünü, yəni 11%-ini, habelə, Parlament Aparatnın inzibati heyətinin 20%-ni, Milli Məclisin komitə rəhbərlərinin 7%-ni qadınlar təşkil edirdilər. Bu, BMT-nin İqtisadi və Sosial Şurasının müəyyən etdiyi 30%-lik kvotadan aşağı olsa da, regional ölkələr (Ermənistan, İran, Türkiyə, Rusiya, Gürcüstan) ilə müqayisədə yüksək idi".

Bəhs etdiyimiz illərdə hökumət qadınların sağlamlığının mühafizəsi ilə bağlı mühüm tədbirlər həyata keçirirdi. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 16 fevral tarixli 27s nömrəli sərəncamı ilə təsdiq edilmiş Gənc Ailə Proqramı (1999-2003) gənc qadınların sağlamlığının təminatı ilə bağlı müəyyən müddəalara malik olmuşdur.

2000-ci ildən etibarən reproduktiv sağlamlıq proqramı fəaliyyətə başlamışdır ki, bunun da çərçivəsində 27 ailə planlaşması mərkəzi açılmışdır. Bu mərkəzlər tərəfindən müvafiq məlumatlar yayılır və fertil yaş həddində olan qadınlar yüksək keyfiyyətli xidmətlər göstərilir.

Milli Fəaliyyət Planında, strateji istiqamət kimi, təsbit olunmuş qadınlara qarşı zorakılıq problemi ilə əlaqədar 2001-ci ildən etibarən hüquq-mühafizə orqanlarının (polis, prokurorluq, məhkəmələr) əməkdaşları üçün qadınlara qarşı zorakılığın qarşısının alınmasına dair proqram həyata keçirilir. Zorakılığın qarşısının alınması və qadınların zorakılıqdan müdafiəsinə dair polis akademiyası üçün fakültativ kurs təşkil edilmişdir. Polis əməkdaşları, prokurorluq işçiləri və hakimlər arasında keçirilən tədqiqat və sorğular hüquq-mühafızə orqanlarının bu məsələyə münasibətini, informasiya sahəsindəki boşluqlar və qadınların hüquq-mühafizə orqanlarındakı qərar qəbuletmə səviyyəsində iştirakı məsələlərini aşkara çıxarmışdır. 2001-ci ildə Azərbaycan UNİFEM-in "Zorakılıqsız həyat" adlı Regional İnformasiya Kampaniyasında iştirak etmişdir. 2002-ci ildən başlayaraq, Qadın Problemləri üzrə Dövlət Komitəsi qadın QHT-lər və siyasi partiyalarda qadın şuraları ilə birlikdə "Qafqazda gender zorakılığına qarşı 16 günlük hərəkat" aksiyasına qoşulmuşdur ki, bunun da çərçivəsində müvafiq seminarlar, konfranslar və KİV-lərdə müzakirələr aparılmışdır. 2003-cü ildə Qadın Problemləri üzrə Dövlət Komitəsi Avropa Şurasının "Qadırıların zorakılıqdan müdafiəsi" və "Seksual istismar məqsədlərə insan alveri" tövsiyələrini Azərbaycan dilinə tərcümə etmiş və bununla əlaqədar, hökumət və qeyri-hökumət təşkilatlarından, eləcə də, KİV-lərdən olan ekspertlərdən ibarət işçi qrupu yaratmışdır. Bu işçi qrupu bu sahəyə aid milli qanunvericiliyin beynəlxalq sazişlərə uyğunluğuna dair ekspert araşdırması aparmış, qadınlara qarşı zorakılığın ləğv edilməsinə və Azərbaycanın öz öhdəliklərini uğurla yerinə yeriməsinə istiqamətlənmiş tövsiyə və tədbirlər hazırlamışdır.

Naziriər Kabineti tərəfindən təsdiq edilmiş 26 sentyabr 2000-ci il tarixli "Qaçqın və məcburi köçkün qadınların müvafiq işlə təmin edilməsi proqramı" qərarın həyata keçirilməsi ilə əlaqədar Qadın Problemləri üzrə Dövlət Komitəsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi ilə birgə qadınlar da daxil olmaqla, qaçqın və məcburi köçkünlərin vəziyyətlərinin yaxşılaşdırılmasına yönəldilmiş müvafiq proqramlar həyata keçirmişdir.

Qadınların rəhbər orqanların işində və qərar qəbuletmə prosesində iştirakı ilə əlaqədar Milli Fəaliyyət Planında nəzərdə tutulmuş müəyyən tədbirlərin həyata keçirilməsi nəticəsində seçilmiş hakimlərin 14%-ni qadınlar təşkil etmişdi. Ali və apellyasiya məhkəmələrinin, eləcə də, bir sıra ümumi və ixtisaslaşdırılmış məhkəmələrin sədrləri qadınlardır. QPDK regionlarda, nazirlik və idarələrdə rəhbər vəzifələrdə çalışan qadınlar haqqında, həmçinin, ali təhsil müəssisələrinin rəhbərləri və orada çalışan qadınlar haqqında məlumat bazası yaratmışdı. 1995-ci ildə seçilmiş Milli Məclisdə 13 qadın - millət vəkili (10,4%) var idi və onlar qanunvericiliyin tərtib olunması, cinslər arasında həqiqi bərabərlik üçün hüquqi şəraitin yaradılması və qadınların fərdi hüquqlarının təmin olunması prosesində fəal iştirak edirdilər.

**_Vahid Ömərov,_**
**_fəlsəfə üzrə fəlsəfə doktoru_**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs



## Allergiyanı aradan qaldıran vasitələr



Havaların isinməsi, təbiətin oyanması bir sıra allergik xəstəliklərin baş qaldırmasına səbəb olur. Geyinilən paltar, qəbul olunan qidalar və məişətdə istifadə edilən allergenli maddələrin çoxluğu həmin xəstəlikləri daha da artırır. Allergiya deyəndə ilk növbədə bədəndə səpgilər və qaşınma başa düşülür. Onlar allergiyanın ilkin əlamətləridir, lakin onlarla yanaşı bronxial astma kimi illərlə davam edən xəstəliklər də var.

Bu barədə AZƏRTAC-a məlumat verən həkim-fitoterapevt Fizulu Hüseynov deyib: "Allergiyası olanlar bədənin allergenə, yəni allergiya törədən maddəyə qarşı müqavimətini artırmaq üçün illərin sınağından çıxmış üsullardan istifadə edə bilərlər. Həmin üsullardan biri kömək etməyəndə digərini sınamaqdan çəkinmək lazım deyil, çünki əlavə ziyanlı təsirləri yoxdur, orqanizmin möhkəmləndirilməsi üçün də faydalı təsir göstərir.

Məsələn, udi-hindi allergiya əleyhinə mükəmməl vasitədir. Təcrübə nəticəsində 10-15 il allergiyadan əziyyət çəkənlərin udi-hindi qəbul edərək sağalması müşahidə olunub. Bunun üçün gündə 2 dəfə 1 çay qaşığı udi-hindi tozu 1 stəkan qaynar suya qarışdırılır, 5 dəqiqədən sonra 1 çay qaşığı bal əlavə edilərək yeməkdən əvvəl 1 stəkan içilir. Prosedur ildə 2 dəfə - yaz və payız aylarında 2 ay müddətində aparılır.

Allergiya baş verəndə dərman axtarmağa tələsmək lazım deyil. 3 ədəd keçibuynuzu meyvəsi yarım litr suda 5 dəqiqə qaynadılır, soyuyandan sonra süzülərək içilir. Təxminən 10 dəqiqə ərzində səpgilər tam keçir. Allergiyanın davam etməməsi üçün prosedur 1 ay aparılır.

Kiçik yaşlı uşaqlarda əmələ gələn səpgilər zamanı yatıqqanqal mükəmməl vasitədir. 2 xörək qaşığı yatıqqanqal 1 stəkan suda dəmlənilir və səpgilərin üzəri pambıqla silinir. Yaxud 50 qram yatıqqanqal 500 qram zeytun yağında günəş işığı altında 10 gün saxlanıldıqdan sonra süzülür. Əldə edilən yağla dəridə olan səpgilər silinir, həmçinin diatezlər zamanı istifadə olunur. Hər gün 1 çay qaşığı zabrus, yəni bal qaymağı yeyilməsi allergiyanı əhəmiyyətli dərəcədə azaldır.

## Alla Puqaçova 70 illik yubileyini qeyd edir



SSRİ Xalq artisti, Azərbaycanın "Dostluq" ordenin sahibi, məşhur Rusiya estrada müğənnisi Alla Puqaçova 70 illik yubileyini qeyd edir. AZƏRTAC xəbər verir ki, Rusiya Prezidenti Vladimir Putin müğənnini yubileyi münasibətilə təbrik edərək, onun qeyri-adi istedadını, parlaq artistlik bacarığını, gənc istedadların üzə çıxmasında rolunu xüsusi qeyd edib.

Alla Puqaçova Moskvada anadan olub. İlk populyarlığı müğənniyə Bolqarıstanda keçirilən "Qızıl Orfey" festivalında ifa etdiyi "Arlekino", daha sonralar 1978-ci ildə Polşanın "Sopot" festivalında təqdim etdiyi "Krallar hər şeyə qadirdir" mahnıları gətirib. Rusiya estradasının primadonnasının repertuarında 500-dən çox mahnı var. İllər ötməsinə baxmayaraq Alla Puqaçovanın "Milyon al qızılgül", "Qədim saat", "Aysberq" və digər mahnıları dillər əzbəridir.

## İsmayıllıda "BMW" aşdı, 3 nəfər öldü

İsmayıllı rayonunun Əhən kəndi ərazisində yol-nəqliyyat hadisəsi baş verib. Daxili İşlər Nazirliyindən SİA-ya verilən məlumata görə, aprelin 13-də saat 20 radələrində İsmayıllı rayonunun Əhən kəndi ərazisində Abşeron rayon sakini Ramin Allahverdiyev idarə etdiyi "BMW" markalı avtomobili aşırıb.

Nəticədə R.Allahverdiyev, sərnişinlərindən İsa Əliyev və Oğuz rayon sakini Kənan Kərimov hadisə yerində ölüb, daha bir sərnişini isə xəstəxanaya yerləşdirilib. İsmayıllı RPŞ tərəfindən araşdırma aparılır.

## "Mercedes" pilotu: Bakıda bizi fərqli yürüş gözləyir



Mövsümün başlanğıcı komandamız üçün ideal olub. Biz, hətta üç mərhələdə iki dəfə qələbə qazanacağımızı təsəvvür belə etmirdik. Buna görə bütün əməkdaşlara fantastik işindən ötrü təşəkkür edirəm. AZƏRTAC xəbər verir ki, bu sözləri Formula 1 Çin Qran-Prisindən sonra "Mercedes" komandasının pilotu Valtteri Bottas söyləyib.

Yürüşçü deyib: "Şəxsən mən bir az kədərliyəm, çünki yürüşü pouldan başladım və artıq ilk metrlərdə onu uduzdum. Start-finiş ağ xəttində gecikmə baş verdi və mən liderliyi Lyuisə təhvil verməli oldum. Bu cür xırdalıqlar böyük rol oynaya bilər və təəssüf ki, bu gün onlar qalibi müəyyən edən amil oldu. Müsbət məqamlara gəldikdə isə, biz trasda Bəhreyndə olduğundan daha inamlı idik. Komanda yaxşı formadadır və maksimum nəticə əldə etməyə çalışmalıyıq. Şanxay trası bir çox cəhətdən unikaldır, Bakıda isə bizi fərqli yürüş gözləyir. İki həftədən sonra bizi nələrin gözlədiyi məlum olacaq".

## Lixtenşteyn-Azərbaycan oyununun vaxtı açıqlanıb

İyirmi bir yaşadək futbolçulardan ibarət Azərbaycan millisinin Avropa çempionatının seçmə mərhələsi çərçivəsində Lixtenşteyn yığması ilə keçirəcəyi oyunun vaxtı və stadionu müəyyənləşib. AFFA-nın məlumatında deyilir ki, yığmamızın Lixtenşteynin müvafiq yaş qrupundan ibarət komandası ilə oyunu iyunun 6-da Eşen şəhərindəki "Sportpark Eschen Mauren" stadionunda keçiriləcək. Oyun Bakı vaxtı ilə saat 21:00-da başlayacaq.

AFFA

## Cüneyt Çakır "Mançester Siti"-"Tottenhem" görüşünü idarə edəcək



16-17-də keçiriləcək UEFA Çempionlar Liqasının dörddəbir final mərhələsinin cavab oyunlarına hakim təyinatları açıqlanıb. UEFA-nın saytında yer alan məlumata görə, türkiyəli FIFA referisi Cüneyt Çakır İngiltərə komandaları "Mançester Siti" və "Tottenhem" klubları arasında keçiriləcək görüşdə baş hakim funksiyasını yerinə yetirəcək. Onun köməkçiləri Bahattin Duran və Tarık Onqun olacaq. Dördüncü hakim funksiyasını isə portuqaliyalı Artur Dias yerinə yetirəcək. Mançester şəhərində təşkil olunacaq görüş aprelin 17-də Bakı vaxtı ilə saat 23:00-da başlayacaq. Londondakı matçda "Tottenhem" minimal hesablı qələbə qazanıb - 1:0. Mərhələnin digər oyunları - "Barselona" (İspaniya)-"Mançester Yunayted" (İngiltərə) qarşılaşmasını almaniyalı Feliks Brıx (ilk oyun 1:0), "Yuventus" (İtaliya) - "Ayaks" (Hollandiya) matçını fransalı Klement Turpin (ilk oyun 1:1), "Porto" (Portuqaliya) - "Liverpul" (İngiltərə) duelini isə Hollandiyadan olan Danni Makkeli idarə edəcək (ilk oyun 0:2). "Barselona"-"Mançester Yunayted", "Yuventus"-"Ayaks" qarşılaşmaları aprelin 16-da, "Porto"-"Liverpul" oyunu isə aprelin 17-də təşkil olunacaq.

## "Qarabağ"-"Keşlə" oyununu Əliyar Ağayev idarə edəcək



Futbol üzrə Azərbaycan Premyer Liqasında XXV turun oyunları üçün hakim təyinatları açıqlanıb. Peşəkar Futbol Liqasının saytında yer alan məlumata görə, aprelin 18-də "Kapital Bank Arena"da "Sumqayıt"-"Səbail" qarşılaşmasını hakim Vüqar Həsənli idarə edəcək. Həmin gün Tofiq Bəhramov adına Respublika Stadionunda keçiriləcək "Qarabağ"-"Keşlə" görüşünün əsas hakimi Əliyar Ağayev olacaq.

Aprelin 19-da "Əlincə Arena"da oynanılacaq "Sabah"-"Neftçi" matçına əsas referi Rövşən Rəcəbov təyin olunub. Turun sonuncu görüşündə - Qəbələ şəhər stadionunda keçiriləcək "Qəbələ"- "Zirə" oyununda baş hakim funksiyasını İnqilab Məmmədov yerinə yetirəcək. Qeyd edək ki, "Sumqayıt"-"Səbail" oyunu saat 16:45-də, "Qarabağ"-"Keşlə" görüşü saat 19:00-da, "Qəbələ"-"Zirə" qarşılaşması 16:00-da, "Sabah"-"Neftçi" matçı isə saat 18:30-da başlayacaq.

## Qrizmann bunu bacaran ilk futbolçu oldu

İspaniya La Liqasının 32-ci turunda keçirilən "Atletiko" - "Selta" oyunu (2:0) meydan sahiblərinin futbolçusu Antuan Qrizmann üçün əlamətdar olub. Matçın 74-cü dəqiqəsində fərqlənən Qrizmann, bu mövsüm Madrid klubunda vurduğu qolların sayını 20-yə çatdırıb. Fransalı hücumçu ardıcıl 5 mövsümdür ki, "Atletiko"nun heyətində 20 və daha çox qol vurur. O, Madrid təmsilçisinin heyətində bunu bacaran ilk futbolçu olub.

Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600